# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 18 (3531) Cümə axşamı / 23-29 may 2024-cü il Qiyməti 40 qəpik


# Əldə edilmiş bütün razılaşmalar icra ediləcək

***Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq Baş nazir Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və digər müşayiət edən şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olmaları ilə əlaqədar mayın 22-də Tehran şəhərində keçirilən rəsmi anım mərasimində iştirak edib. Nazirlər Kabinetindən bildiriblər ki, Baş nazir Əli Əsədov İran İslam Respublikasının Birinci vitse-prezidenti, Prezident vəzifəsini icra edən Məhəmməd Moxberlə görüşərək, ona Azərbaycan Respublikasının Prezidenti, hökuməti və xalqı adından dərin hüznlə başsağlığı verib.***



Bildirilib ki, böyük dövlət xadimi, görkəmli siyasətçi Seyid İbrahim Rəisi bütün həyatını ölkəsinə fədakarlıqla və sədaqətlə xidmətə həsr edib.

Qeyd edək ki, Azərbaycan Respublikasının nümayəndə heyətinə xarici işlər naziri Ceyhun Bayramov, həmçinin Milli Məclisin Azərbaycan-İran parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Əziz Ələkbərov, Cavanşir Paşazadə, Cəbi Quliyev və digər rəsmi şəxslər daxildir.

Azərbaycana səfəri ilə iki ölkə arasındakı münasibətlərdə yeni səhifə açan İbrahim Rəisinin facitəli ölümü ilə bağlı Azəçrbaycan Prezidentinin İran səfirliyinə baş çəkərək başsağlığı verməsi də xüsusi vurğulanmalıdır. Dövlət başçısı İran İslam Respublikasının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Seyid Cəfər Ağayi ilə söhbətində bir daha bildirdi ki, bu itki təkcə İran xalqına, dövlətinə üz verməyib, bütün müsəlman aləminə üz verib:

Seyid İbrahim Rəisi böyük dövlət xadimi idi, görkəmli siyasətçi və İran xalqının etibarını qazanmış böyük şəxsiyyət idi. Onunla çoxsaylı görüşlərim hər zaman məndə çox böyük təəssürat izi buraxırdı. Onunla son görüşüm isə tarixi bir görüş idi. Həm o, həm də mən bu görüşü məhz tarixi görüş adlandırmışdıq. Dövlət sərhədində böyük infrastruktur layihəsinin açılışında birgə iştirakımız İran-Azərbaycan əlaqələrinin nə qədər möhkəm olmasından xəbər verirdi, həm xalqlarımıza, həm bütün dünyaya çox açıq mesaj idi ki, biz dostuq, qardaşıq, biz bundan sonra da birlikdə olacağıq. Açılış mərasimindən sonra həm mərhum Prezident Rəisinin, həm də mənim rəsmi açıqlamalarımız çox ciddi siyasi məna daşıyırdı. Hər iki Prezident açıq bəyan etmişdi ki,



“

*O görüşdə iştirak edən şəxslər bunu, əminəm ki, İranın yeni rəhbərliyinə çatdıracaqlar*

*Azərbaycaen İranla mehriban qonşuluq və tərəfdaşlıq əlaqələrinin davamlı xarakter almasında, daha da dərinləşdirilməsində maraqlıdır*

bu bölgənin gələcək inkişafında bölgədə yerləşən ölkələr fəal iştirak etməlidirlər. Faciənin baş verməsi, əlbəttə ki, böyük dərddir, həm onun yaxınlarına, həm onu tanıyanlara. Amma təsəlli verən odur ki, o, öz həyatını İran xalqının inkişafına həsr etmişdir. İran dövlətinin milli maraqlarının müdafiə edilməsində onun xüsusi rolu var idi. Həm Prezident vəzifəsində çalışdığı zaman, həm ondan əvvəlki dövrlərdə o, İran xalqının rifahını yaxşılaşdırmağa çalışırdı və milli maraqların müdafiəsində onun böyük rolu olmuşdur.

Bildiyiniz kimi, faciədən əvvəl biz iki saatdan çox birlikdə idik. Bir saatdan çox davam edən ikitərəfli görüş əsnasında bir çox önəmli məsələlər müzakirə edilmişdir. İran-Azərbaycan əlaqələrinin inkişafının gələcək istiqamətləri bir daha təsdiqlənmişdir və hər iki tərəfin güclü siyasi iradəsi bir daha nümayiş etdirilmişdir. Bununla bərabər, biz konkret infrastruktur layihələri haqqında geniş fikir mübadiləsi aparmışdıq, önəmli qərarlar qəbul edilmişdir. O görüşdə iştirak edən şəxslər bunu, əminəm ki, İranın yeni rəhbərliyinə çatdıracaqlar. Əldə edilmiş bütün razılaşmalar, əminəm ki, icra ediləcək. Çünki bu, İran və Azərbaycan xalqlarının iradəsinə söykənir və biz mərhum Prezident Rəisi ilə söhbət əsnasında qəti iradəmizi bildirdik ki, bundan sonra böyük layihələrin sayı çox olacaq, həm ikitərəfli, həm çoxtərəfli formatda”. Göründüyü kimi, Azərbaycaen İranla mehriban qonşuluq və tərəfdaşlıq əlaqələrinin davamlı xarakter almasında, daha da dərinləşdirilməsində maraqlıdır. Əldə edilmiş razılaşmaların, birgə layihələrin vaxtında reallaşdırılması ilə bağlı qəti siyasi iradəyə malikdir.

Həmçinin, hadisənin baş verdiyi ilk dəqiqələrdən Azərbaycan dövlətinin ali səviyyədə ortaya qoyduğu mövqe, yardım təklifləri və mərhum prezidentin dəfnində yüksək səviyyədə təmsil olunması İranın ali dini rəhbərliyi tərəfindən də yüksək dəyərləndirilib. Bütün bunlar onu deməyə əsas verir ki, İran-Azərbaycan münasibətləri yeni mərhələyə qədəm qoyacaq.

✍ *Ləman Əliyeva*

MÜSAHİB

## AŞPA-nın Azərbaycana münasibətində heç nə dəyişilməyib



**Asim Mollazadə,**
Milli Məclisin deputatı

***Məlum olduğu kimi, Azərbaycan nümayəndə heyəti Avropa Şurası Parlament Assambleyası ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırıb. Bu qərar AŞPA-da Azərbaycan nümayəndə heyəti üzvlərinin etimadnamələrinin qəbul edilməməsi barədə avropalı deputatların çağırışlarından sonra verilib. Bununla belə, Azərbaycanın tərəfdaşı olan ölkələr AŞPA-ya çağırışlar edərək Bakıya qarşı ikili standarta son qoymağa, ədalətsizliyi ortadan qaldırmağa səsləyirlər.***

*Bu qurum özü ölkəmizlə münasibətləri pozub, özü də düzəltməlidir*

⏩ Səh. 2

MÜSAHİB



**Akif Nağı,**
“Azad Vətən” partiyasının sədri

“

■ Son prezident seçkiləri kimi, bu da ərazi bütövlüyümüzün bərpa olunduğu şəraitdə ilk parlament seçkiləri olacaq...

■ Milli, dövlət maraqları hər şeydən, o cümlədən Avropa dəyərləri deyilənlərdən üstün tutulmalıdır

■ Son dövrdə münasibətlərdəki istiləşmə hər iki tərəfin maraqlarına cavab verirdi və yəqin ki, bu xətt davam etdiriləcək...

⏩ Səh. 5

GÜNÜN FOTOSU...



**İranın Azərbaycandakı səfirliyinin inzibati binası önünə gül dəstələri düzülüb**

GÜNÜN SİTATI



“

*Azərbaycan və Ermənistan arasında yekun sülh sazişi imzalansa, bu, bütün regiona müsbət təsir göstərəcək*

”

**Hakan Fidan,**
Türkiyənin xarici işlər naziri

KARİKATURA



**Paşinyan: “Orduya əsgər tapmırıq”**

“

## ABŞ-la münasibətlərdə yaxınlaşma hiss olunur

**Jalə Əliyeva,**
Milli Məclisin deputatı

ABŞ-Azərbaycan arasında münasibətlərin normallaşmasını zəruri edən reallıqlar ortadadır.

⏩ Səh. 3

STATİSTİKA



**■ Azərbaycan Mərkəzi Bankı (AMB) 2023-cü ili 349,113 milyon manat mənfəət əldə edib. Mərkəzi Bank 2022-ci ildə 63,955 milyon manat zərər etmişdi.**

2024-cü ilin yanvar ayının 1-nə Azərbaycan Mərkəzi Bankının (AMB) aktivləri 34 milyard 793,463 milyon manat təşkil edib. Bu göstərici ötən il yanvarın 1-nə nisbətən 12,7 % çoxdur. Belə ki, 2023-cü ilin yanvar ayının 1-nə AMB-nin aktivləri 30 milyard 860, 987 milyon manat təşkil edib.



⏩ Səh. 3

## Yeni Kaledoniyanın azadlıq tələbi

## PREZİDENTİN İŞ GÜNÜ

### Fərman



**Prezident İlham Əliyev 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.**

Fərmana əsasən, ədliyyə nazirinin səlahiyyətləri artırılıb. Belə ki, o, nazirliyin baş idarələrinin və idarələrinin rəislərini vəzifəyə təyin və azad edə biləcək. Əvvəllər bu, Azərbaycan Prezidenti ilə razılaşdırılmaqla həyata keçirilirdi.

## Emoməli Rəhmon Şəhidlər xiyabanını ziyarət edib



**Azərbaycanda dövlət səfərində olan Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon mayın 22-də Şəhidlər xiyabanını ziyarət edib.**

Prezident Emoməli Rəhmon Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Bakının ən hündür nöqtəsindən paytaxtın mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

## Leyla Əliyeva İsveçrədə BMT ofisində görüşlər keçirib



***Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva İsveçrənin Cenevrə şəhərinə işgüzar səfəri çərçivəsində Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Ərzaq Proqramının (ÜƏP) Cenevrə Qlobal ofisinin direktoru Cankarlo Çirri və BMT Ətraf Mühit Proqramının (ƏMP) Avropa üzrə yeni təyin olunmuş regional direktoru Arnold Kraylhuber ilə görüşüb.***

IDEA İctimai Birliyindən bildirilib ki, ÜƏP rəsmisi ilə keçirilən görüşdə IDEA təşkilatı ilə ÜƏP arasında BMT-nin Dayanıqlı İnkişaf məqsədlərindən olan Yer Kürəsində aclığın aradan qaldırılması üzrə birgə fəaliyyət, o cümlədən münaqişələr, təbii fəlakətlər və iqlim dəyişmələrindən əziyyət çəkən insanların ərzaqla təminatına dair müzakirələr aparılıb.

Leyla Əliyeva IDEA İB-nin Azərbaycanda və bölgəmizdən kənarda müxtəlif BMT qurumları ilə çoxşaxəli əməkdaşlıq nümunələrini diqqətə çatdıraraq, ÜƏP ilə daha sıx tərəfdaşlığa hazır olduqlarını vurğulayıb. Bu xüsusda o, son illər Azərbaycanda könüllülər hərəkatının geniş vüsət tapdığını və istər ölkə daxilində, istərsə də ölkədən kənarda dəyərli təcrübə qazandıqlarını nəzərə alaraq, ÜƏP-in dünyanın müxtəlif bölgələrində fəaliyyətlərinə Azərbaycan könüllülərinin cəlb olunmasını təklif edib.

ƏMP regional direktoru ilə keçirilən görüşdə IDEA İctimai Birliyinin bu BMT proqramı ilə Azərbaycanda həyata keçirdikləri müxtəlif layihələrə istinad edilib, uğurlu əməkdaşlıq nümunələri kimi canlı aləmin bir sıra növlərinin mühafizəsini ehtiva edən layihələr, o cümlədən Xəzər dənizinin ekologiyasının mühafizəsi və bərpası təşəbbüsləri göstərilib. Leyla Əliyeva xüsusilə qeyd edib ki, 30 ilə yaxın işğal altında olan ərazilərimizdə meşələr qırılıb, su hövzələri çirkləndirilib, təbii ehtiyatlarımız amansızcasına istismar olunub, nəticədə ölkəmizin ekologiyasına ciddi zərər vurulub.

Bu baxımdan işğala məruz qalmış ərazilərimizdə təbiətin bərpası və dayanıqlı inkişafın təmin edilməsi istiqamətində ƏMP ilə əməkdaşlığın vacibliyi qeyd olunub. IDEA İB-nin rəhbəri hər iki BMT proqramının nümayəndəsini bu ilin noyabrında Bakıda keçiriləcək COP29 konfransına dəvət edib və bu proses çərçivəsində birgə tədbirlər keçirmək imkanlarını müzakirə etməyə hazır olduqlarını diqqətə çatdırıb.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# AŞPA-nın Azərbaycana münasibətində heç nə dəyişilməyib

***Məlum olduğu kimi, Azərbaycan nümayəndə heyəti Avropa Şurası Parlament Assambleyası ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırıb. Bu qərar AŞPA-da Azərbaycan nümayəndə heyəti üzvlərinin etimadnamələrinin qəbul edilməməsi barədə avropalı deputatların çağırışlarından sonra verilib. Bununla belə, Azərbaycanın tərəfdaşı olan ölkələr AŞPA-ya çağırışlar edərək Bakıya qarşı ikili standarta son qoymağa, ədalətsizliyi ortadan qaldırmağa səsləyirlər.***

## Müsahib

Milli Məclisin deputatı, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Asim Mollazadə ilə bu istiqamətdəki son vəziyyəti dəyərləndirdik.

***- Azərbaycan və Avropa Şurası Parlament Assambleyası arasında mövcud vəziyyət necədir? Yanvar ayından bu yana münasibətlərdə dəyişiklik, yumşalma varmı?***

- Avropa Şurası Parlament Assambleyası ikitərəfli gərginliyin aradan qaldırılması üçün müvafiq qərarlar qəbul etməlidir. Hələ ki, bu qərarlar alınmayıb və düşünürəm, münasibətlərdə heç bir dəyişiklik baş verməyib.

AŞPA Azərbaycana qarşı qərəzli hərəkətlərə son qoymalı, əsassız iddialarından əl çəkməlidir. Əks halda, durum dəyişməyəcək və bu, AŞPA-nın özünün nüfuzunun getdikcə aşağı düşməsinə səbəb olacaq. Həmçinin, Azərbaycan və digər ölkələrin Avropa Şurası ilə əlaqələrini zəiflədəcək.

***- Belə qeydlər var ki, ayrı-ayrı ölkələr AŞPA-ya çağırışlar edib, bu qurumun rəhbərliyini Azərbaycana qarşı sərgilədiyi münasibətə görə tənqid atəşinə tutub. Bu çağırışlar hansısa nəticə verə bilərmi?***

- Assambleyada bir sıra korrupsiyaya uğramış nümayəndələrdən başqa, bütün ölkələr Avropa rəhbərliyini Azərbaycana qarşı qərəzli hərəkətlərinə görə qınayır. Onlar anlayırlar ki, AŞPA-da Azərbaycan nümayəndə heyətinə qarşı qərəzli hərəkətlər baş verib. Bunların arxasında kimlərin durduğu tam bəlli deyil. Bu, Avropa Şurasını çox zəiflədib və belə davam edərsə, heç bir hörməti qalmayacaq.

Eyni zamanda qeyd edim ki, Avropa Şurasının bir neçə qurumu var. Avropa Parlament Assambleyası həmin qurumlardan biridir. Bütün qurumlarda Azərbaycanı müdafiə etməklə bağlı mövqe sərgilənir. Onlar da Parlament Asambleyasında bir neçə qərəzli, korrupsiyaya uğramış, tamamilə fərqli səbəblərə görə Azərbaycana hücum edən siyasətçilərin olduğunu bilir və bu durumdan narahatdırlar. Anlayırlar ki, onların bu hərəkətləri Avropa Şurasının imicinə zərbədir. Bu vəziyyət həmin ölkələrin nümayəndələri, Avropa siyasətçiləri üçün qəbuledilməzdir. Ona görə də, öz fikirlərini, narahatlıqlarını açıq şəkildə ifadə edirlər.

Hazırda Avropa Parlamentinə seçkilər olmalıdır. Belə vəziyyətdə prosesin necə inkişaf edəcəyini müəyyənləşdirmək də mümkün olmur. Çox böyük səhvlərə yol verilib. Bu, Avropa məkanında olan ölkələrin maraqları üçün də mənfi nəticələrlə müşahidə olunur.

> *"Bu qurum özü ölkəmizlə münasibətləri pozub, özü də düzəltməlidir*

***- AŞPA-da Azərbaycan nümayəndə heyətinə məhdudlaşdırıcı tədbirlərin tətbiq edilməsi və ya qurumdakı etimadnaməsinin ləğvi bu quruma, yaxud ölkəmizin qurumdakı təmsilçiliyinə necə təsir etdi?***

- Zərbə məhz Avropa Şurasının binasına dəydi. Avropa Şurasını bir neçə korrupsiyaya uğramış siyasətçilər ələ alıb və öz hərəkətləri ilə bu təşkilatı getdikcə alçaldırlar. Bununla da Avropa Şurasına böyük zərbə endirməkdədirlər. Azərbaycan bu prosesdə heç nə itirmir.



**Asim Mollazadə,**
Milli Məclisin deputatı

Bu durum Azərbaycana, onun AŞPA-dakı təmsilçiliyinə zərbə kimi dəyərləndirilə bilməz. Hücumların əsas səbəbi Azərbaycanın düşmən üzərində çaldığı qələbəsi, güclənməsidir. Bunu həzm edə bilmirlər və qısqanclıqla Azərbaycana qarşı bu cür hücumlar edirlər.

Eləcə də, AŞPA-da Azərbaycan nümayəndə heyətinin mandatının dondurulması ilə bağlı təşəbbüslə çıxış edən və ölkəmizə qarşı çıxış edərək bir çox səbəblər gətirən Almaniya nümayəndəsi demək olar ki, biabır olub. Onun Azərbaycana qarşı hücumları Avropaya xidmət eləmir. Bu tamamilə fərqli qüvvələrə xidmət edən korupsiyaya uğramış siyasətçidir. Bu oyunların arxasında kimlərin dayandığı hamıya bəllidir. Bunlar erməni diasporasına xidmət edən, korrupsiya ilə sıx bağlı olan, digər ölkələrə və qüvvələrə xidmət edən siyasətçilərdir. Əslində, Avropa məkanında bütün bunlar şəffaf şəkildə görünür.

Ona görə də düşünməliyik ki, ümumiyyətlə, belə bir qurumda olmağa ehtiyac var, yay yox. Əvvəl düşünürdük ki, bu, Azərbaycanın öz haqqını ifadə edəcəyi bir platformadır. Görünən odur ki, bu məkan korrupsiya ilə bağlı olan siyasətçilər üzündən haqqın, hüququn qorunduğu platforma ola bilmir. Eləcə də, onların dedikləri ilə reallıq arasında çox ciddi ziddiyyətlər var.

***- Belə qeydlər var ki, Azərbaycanın AŞPA-dan çıxması ölkəmizin pan-Avropa təşkilatlarından sıxışdırılması üçün president ola bilər...***

- Əksinə, Azərbaycanın önəmi bir sıra amilə görə artıb.

Son vaxtlar Avropa məkanında çox ciddi anti-İslam, anti-türk ab-havası var. Bu, Avropanın özünü belə təhlükəli bir məkana çevirir. Orada Avropanın inkişafına maneə törədən amillər var. Avropanın köhnə tarixi yenidən siyasi formada bərpa olunmağa başlayıb. Hamı Avropanın XX əsrin əvvəllərinə aid tarixini yaxşı bilir və bu təhlükəni gördükləri üçün narahatdırlar. Avropa müharibələr məkanı olub.

***- İndi də həmin müharibələri bizim regiona gətirmək istəyirlər...***

- Onların bu imkanları məhduddur. Hər halda Avropa siyasi məkanında çox təhlükəli proseslər gedir.

***- Azərbaycanın özünün AŞPA-ya münasibətində hansı dəyisiklik var?***

- Sadəcə olaraq biz narahatıq ki, o qurumda çirkaba batmış siyasətçilər meydanı əllərinə almağa çalışırlar. Sözsüz, bu, həmin qurumun ikilistandartlı, qərəzli, ədalətsiz bir qurum olaraq əhəmiyyətini azaldacaq. Bu ədalətsiz, maraqlara xidmət edən siyasətçilərin əlinə keçərsə, tək Azərbaycan üçün deyil, digər ölkələr üçün də təhlükədir.

***- ASPA-dan tələbimiz nədir?***

- AŞPA-dan heç nə tələb etmirik. Bu qurum özü Azərbaycanla münasibətləri pozub, özü də düzəltməlidir. Qərəzli qərarlarının üstündən xətt çəkib Azərbaycan nümayəndələrini geri çağırmalıdırlar. Hələ ki, bu istiqamətdə heç nə baş vermir. Görünən odur, AŞPA-nın Azərbaycana münasibətində heç nə dəyişilməyib.

✍ *Tahirə Qafarlı*

# Azərbaycan-Tacikistan münasibətlərində yeni səhifə

***Azərbaycan Respublikasının çoxşaxəli uğurlu xarici siyasətində Mərkəzi Asiya ölkələri ilə münasibətlər xüsusi yer tutur. Xalqlarımızın əsrlərə söykənən tarixi, mədəni, dini bağlılığına əsaslanan bu münasibətlər xüsusilə son dövrlərdə dövlətlərimizin başçılarının siyasi iradəsi ilə daha da genişlənərək inkişaf edir. Son illərdə dünyada, xüsusilə regionda yaşanan proseslər ölkələrdən daha sıx əməkdaşlıq etməyi və ümumi səylər göstərməyi tələb edir. Bu dinamika Azərbaycanın xarici siyasətində açıq şəkildə hiss olunur.***



Prezident İlham Əliyevin son 2-3 il ərzində Mərkəzi Asiya, o cümlədən regionun türkdilli ölkələrinə ardıcıl səfərləri və həmin dövlətlərin başçılarının Azərbaycana səfərləri əlaqələrimizin genişlənməsini, dərinləşməsini və strateji xarakter almasını şərtləndirir. Bu səfərlər zamanı imzalanan müqavilələr, sazişlər ölkələrimiz arasında münasibətlərin qarşıdakı dövr üçün əsas istiqamətlərini müəyyənləşdirir. Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığında Tacikistan ilə münasibətlər də özünəməxsus rol oynayır.

Vətən müharibəsindən sonra Azərbaycanın nəqliyyat-logistika imkanlarının genişlənməsi, Zəngəzur dəhlizinin reallaşdırılması məsələsi ölkəmizi Şərqlə Qərb arasında mühüm nəqliyyat qovşağına çevirib. Təsadüfi deyil ki, bu gün Mərkəzi Asiya ölkələrindən, bir qədər də uzağa getsək, Çindən Avropaya gedən ən qısa və təhlükəsiz tranzit daşımalar məhz ölkəmizin ərazisindən həyata keçirilir, bu da Azərbaycana marağı getdikcə artırır. Dünyada cərəyan edən son hadisələr fonunda Azərbaycanın da üzərində yerləşdiyi Orta Dəhlizin əhəmiyyəti artmaqdadır. Dövlətimizin başçısının uzaqgörən siyasətinin nəticəsi olaraq Azərbaycanda müasir nəqliyyat-logistika infrastrukturu yaradılıb və ölkəmiz beynəlxalq nəqliyyat şəbəkələrinə inteqrasiya olunub. Azərbaycan reallaşdırdığı nəhəng infrastruktur layihələri ilə Avropa ilə Asiya arasında vazkeçilməz nəqliyyat qovşağına və tranzit mərkəzə çevrilməkdədir. Şərq-Qərb dəhlizi Avropa ilə Asiya arasında ən qısa, təhlükəsiz və iqtisadi baxımdan səmərəli bağlantı olaraq Avrasiya məkanında sərnişin və nəqliyyat daşımalarının gücləndirilməsinə böyük töhfə verəcək. Bu gün Orta Dəhlizə artan maraq heç də təsadüfi deyil. Çünki bu beynəlxalq nəqliyyat marşrutu Çindən, Qazaxıstandan, Xəzər dənizindən, Azərbaycan və Gürcüstan ərazisindən keçərək, Türkiyə və Avropa ölkələrinə qədər uzanır və Şərqdən Qərbə yükdaşımalarda son dərəcə əhəmiyyətli yoldur. Bu marşrutun ən vacib hissəsi isə təbii ki, Zəngəzur dəhlizi olacaq. Heç şübhəsiz, Zəngəzur dəhlizi, ilk növbədə, bölgənin inkişafında xüsusi əhəmiyyət kəsb edəcək, regionda yeni əməkdaşlıq formatının yaranmasına, sülhün və tərəqqinin təmin olunmasına xidmət göstərəcək.

Heç şübhəsiz, bu gün türk dövlətləri arasında münasibətlərin dərinləşməsində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mühüm rola malikdirlər və prosesə böyük töhfələr verirlər. Məhz Azərbaycan və Türkiyə liderlərinin səyləri və qətiyyəti sayəsində reallaşan Bakı-Tbilisi-Ceyhan boru kəməri 16 ildir Azərbaycan, Türkmənistan və Qazaxıstan neftini dünya bazarlarına fasiləsiz çatdırır. Onurğa sütununu TANAP-ın təşkil etdiyi Cənub Qaz Dəhlizi sayəsində türk dövlətləri Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayırlar.

Azərbaycanın Mərkəzi Asiya dövlətləri arasında Tacikistanla münasibətləri xüsusi əhəmiyyətə malikdir. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il mayın 29-da qurulub. 2007-ci ildə Azərbaycanın Tacikistanda, bir il sonra isə Tacikistanın Azərbaycanda səfirliyi fəaliyyətə başlayıb.

Ölkələrimiz arasında əlaqələrin inkişafında Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonun şəxsi dostluq münasibətləri mühüm rol oynayır. Səmimi dostluq münasibətləri dövlət başçılarının qarşılıqlı səfərlərinin intensivliyində və məhsuldarlığında da özünü göstərir. Belə ki, Prezident İlham Əliyev Tacikistana indiyədək altı dəfə səfər edib. Ötən il dövlətlərimiz arasında ali səfərlər baxımından olduqca məhsuldar il olub. Azərbaycan Prezidenti 2023-cü ildə dost ölkədə iki dəfə səfərdə olub. Dövlətimizin başçısı 2023-cü il aprelin 5-6-da Tacikistana dövlət səfəri edib. Prezident İlham Əliyev ötən il sentyabrın 14-də Mərkəzi Asiya dövlət başçılarının Məşvərət Şurasının Düşənbədə keçirilən iclasında Prezident Emoməli Rəhmonun dəvəti ilə yeganə fəxri qonaq qismində iştirak edib. Tacikistan Prezidenti Emoməli Rəhmon isə ötən il noyabrın 24-də BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün ölkəmizdə səfərdə olub.

▸▸ Səh. 4

# Yeni Kaledoniyanın azadlıq tələbi

***C**ənubi Qafqazda separatizmi və münaqişəni yenidən alovlandırmağı qarşısına məqsəd qoyan Fransa Prezidenti Emmanuel Makronun özü bu tələyə düşüb. İndi Fransa neokolonializmindən əziyyət çəkən müstəmləkələri, xüsusilə də Yeni Kaledoniyada vəziyyət olduqca gərgindir. Müstəqillik əldə etməyi qarşısına qoyan yerli kanakların etiraz aksiyaları Makronun əmri ilə qanlı bir şəkildə alınır. İnsan hüquqlarını heçə sayaraq qeyri-adekvat güc tətbiqi ilə etiraz aksiyalarını yatırmağa çalışan Paris adaya minlərlə hərbçi və polis göndərir.***



## Təhlil

### Sözünün üstündə durmayan Makron

**Qeyd edək ki, Makron öz sələflərinin ada ilə bağlı əvvəlki qərarlarını görməzdən gələrək Yeni Kaledoniyanı fransızlaşdırmaq qərarına gəlib. Bu məqsədlə parlamentə təqdim olunan qanun layihəsi isə atəşi alovlayan fitil rolunu oynayıb.** Qanuna əsasən hazırda adada yaşayan, Fransanın materik hissəsindən gələn mühacirlərə yerli seçkilərdə səsvermə hüququnun verilməsi nəzərdə tutulur. Yerli kanallar tərəfindən bu qərar Fransanın arxipelaqda təsirini artırmaq cəhdi kimi qiymətləndirilir. Fəallar müəyyən edilmiş səsvermə qaydalarının dəyişdirilməsinin əleyhinədirlər. Yeni qaydalar Yeni Kaledoniyada 10 ildən artıq yaşayan Fransa vətəndaşlarına yerli seçkilərdə səs verməyə icazə verir. Bu, fransız mühacirlərin Yeni Kaledoniya siyasətinə təsirini artıra bilər. Etirazlar mayın 13-də iğtişaşlara çevrilib. İnsanlar dükanları və yanacaqdoldurma məntəqələrini yandırıb, talan edib, avtomobilləri aşırıb, polislə toqquşub. Arxipelaqda hazırda fövqəladə vəziyyət elan edilib və Yeni Kaledoniyaya qoşun göndərilib. İğtişaşlar nəticəsində beş nəfər - üç etirazçı və iki hüquq-mühafizə orqanı əməkdaşı həlak olub. 200-dən çox insan saxlanılıb. İğtişaşlardan dəyən ziyan 200 milyon avro qiymətləndirilir ki, bu da Yeni Kaledoniyanın ÜDM-nin 2,5%-ni təşkil edir.



### Ayrı-seçkilik, zorakılıq, güc tətbiqi...

**Yeni Kaledoniyadakı iqtisadi böhran vəziyyəti daha da pisləşdirir. Sakinlər yüksək işsizlikdən və fransızlılara olan münasibətlə bağlı ayrı-seçkilikdən narazıdırlar.** Fransa hakimiyyət orqanları iğtişaşlara çağırışların məhz orada yayıldığını iddia edərək, TikTok-u bloklayıb. Öz növbəsində, bəzi politoloqlar Fransanı Yeni Kaledoniyadakı fəlakətin əsl miqyasını gizlətməyə çalışmaqda ittiham edirlər, çünki orada sosial şəbəkələr bağlanıb və jurnalistlərin girişi məhdudlaşdırılıb.

Qeyd edək ki, Yeni Kaledoniya 1800-cü illərin ortalarından bəri Fransanın müstəmləkə ərazisi olmuşdur. Təxminən, iki əsr keçsə də, siyasi həyatda hələ də adaların Fransanın bir hissəsi, muxtar və ya müstəqil olması ilə bağlı mübahisələr hökm sürür. Fikirlər etnik zəmində, təxminən, bölünür. Yerli kanaklar əhalinin, təxminən, 40%-ni təşkil edir, lakin ümumilikdə Avropa Kaledoniyasının sakinlərinə nisbətən daha yoxsuldur və daha az təhsil ili var. Kanak qrupları deyirlər ki, son səsvermə qaydaları yerli əhalinin mövqeyini zəiflədəcək. Noumea sazişində nəzərdə tutulan Yeni Kaledoniyanın Fransa Respublikasından ayrılması ilə bağlı keçirilən hər üç referendum müstəqillik tərəfdarları üçün uğursuz olub və digər ölkələrdəki separatçı ünsürləri dəstəkləyən Paris Yeni Kaledoniyaya ondan ayrılmağa imkan verməyib.

■ **Fransanın "Le Monde" qəzeti Yeni Kaledoniyadakı iğtişaşların 1980-ci illərdən bəri ən pis olduğunu yazır. Yerli əhali fransız jandarmlarının mərhəmətinə təslim olmaq fikrində deyil.** Bəs Yeni Kaledoniyadakı iğtişaşlar Makronu niyə bu qədər əsəbi edib? Səbəblər kifayət qədər tutarlıdır. Bu əraziyə nəzarət Paris üçün böyük strateji əhəmiyyət kəsb edir. Birincisi, ona görə ki, bu, Fransaya Asiya-Sakit okean regionunda geosiyasi və hərbi təsirini saxlamağa imkan verir. İkincisi, Yeni Kaledoniya nikel istehsalında dünyada dördüncü yeri tutur, mütəxəssislərin fikrincə, ehtiyac yalnız artacaqdır.

### Bakıya qarşı əsassız ittihamlar

**İndi isə Paris illərdir yürütdüyü neokolonial siyasətin əsirinə çevrilib. Makron hökuməti bu məsələdə özünü günahlandırmaqdan daha çox "xarici səbəbkarlar" axtarmağa başlayıb.**

Bu məsələdə Azərbaycanı ittiham edib. Halbuki Fransanın özündə də gözəl dərk edirlər ki, Emmanuel Makron hakimiyyətə gəldikdən sonra, Fransanın beynəlxalq aləmdəki nüfuzu sürətlə zəifləyir, Paris dayaqlarını bir-bir itirir. Buraya Afrikadakı diplomatik və siyasi məğlubiyyətləri, Avstraliya ilə imzalanmış, dəyəri milyardlarla dollar olan hərbi sazişlərin ləğvini, Ukrayna böhranı ilə bağlı çıxılmaz vəziyyəti, Cənubi Qafqazda casus şəbəkəsinin ifşasını və digər məqamları əlavə etsək, mövcud durumun Paris üçün nə dərəcədə acınacaqlı olduğunu görə bilərik. Parisin Azərbaycanın ünvanına səsləndirdiyi ittihamların isə heç bir sübutu və əsası yoxdur. Əksinə, hər kəsə bəllidir ki, bölgəmizdə sülh və sabitliyə ən böyük əngəl hazırda Parisdir, daha doğrusu, Makronun Fransasıdır. Ermənistanın silahlandırılması, separatizmə dəstək, müşahidəçi adı altında sərhədimizə casusların göndərilməsi, Senatda tarixin zibilliyinə atılan separatçı rejimin "müstəqilliyinin" tanınması, Avropa Parlamenti, Avropa İttifaqı, Avropa Şurası Parlament Assambleyası kimi beynəlxalq təşkilatlarda Bakıya qarşı antitəbliğatın aparılması. BMT səviyyəsində ölkəmizə sanksiyaların tətbiqi üçün üzdəniraq qətnamələrin təqdim edilməsi Makronun nə dərəcədə anti-Azərbaycan əhval-ruhiyyədə olduğunun göstəricisidir. Ən mühüm məqam ondan ibarətdir ki, Parisin "ermənidən daha çox erməni olmaq" sevdasından qaynaqlanan bu təşəbbüslərin hamısı Azərbaycan dövlətinin uğurlu diplomatik-siyasi gedişləri ilə tam iflasa uğrayıb. İndi isə necə deyərlər, Makronun quyruq acısı var. Onun nəzərində, az qala, Fransanın kiçik şəhərlərini bürüyən sosialxarakterli etirazların da səbəbkarı Azərbaycandır. Bakı da öz növbəsində, Parisin əsassız hücumuna cavab olaraq, "ölkənizin xarici ərazilərə münasibətdə bu cür etirazlara səbəb olan uğursuz siyasətinə diqqət yetirməyi" tövsiyə edib.

### "Zorakılığa son qoyun!" çağırışı

**Makron hökumətinin neokolonial siyasəti, Yeni Kaledoniyadakı etirazları qəddarlıqla yatırtması Fransanın digər dənizaşırı koloniyalarını da hərəkətə gətirib. Reunion, Qvadelupa, Martinik və Fransa Qvianasının prezidentləri mayın 19-da Yeni Kaledoniyada yerli səslərin sayını azaldan islahatlara dərhal son qoymağa çağırıblar.**

"Bu qərar yalnız siyasi cavab, zorakılığın artmasına son qoyacaq, vətəndaş müharibəsinin qarşısını almağa kömək edəcək. Biz hökuməti dinc dialoqun bərpası üçün ilkin şərt kimi Yeni Kaledoniya-Kanakidə seçkilər üçün seçki korpusunun dəyişdirilməsinə yönəlmiş konstitusiya islahatı qanun layihəsini dərhal geri götürməyə çağırırıq", - deyə onlar bildirib.

Mətni onun təşəbbüskarlarından biri olan Reunion regionunun prezidenti Huguette Bellot, eləcə də onun Qvadelupadan olan həmkarları Ari Çalu, Martinikdən Serj Leçimi və Qvianadan olan Qabriel Servil imzalayıb. Tələb bu dörd xarici ərazini, eləcə də Yeni Kaledoniya, Fransız Polineziyası, Sent-Martin və Sent-Bartelemi təmsil edən, təxminən, iyirmi parlamentari tərəfindən bəyənilib.

İmzalayan tərəflərin fikrincə, Fransa hökumətinin təhlükəsizliklə bağlı müstəsna tədbirlərin - səyahət qadağası, ev dustaqlığı, axtarışlar və əlavə polis və jandarmların yeridilməsi - problemin həllini təmin etmir. Bu repressiv tədbirlər yalnız zorakılıq spiralını təhrik edə bilər və Fransanın dənizaşırı ərazilərinin nümayəndələrinin vurğuladığı kimi, gözlənilən sakitliyə qayıtmağı təhlükə altına qoya bilər.

Sakit Okean regionunda fəaliyyət göstərən 30-a yaxın təşkilat Fransa hökumətinin Yeni Kaledoniyada dinc əhaliyə qarşı törətdiyi vəhşiliklərə etiraz əlaməti olaraq birgə bəyanat yayıb. Sənəddə Fransanın dekolonizasiya prosesini idarə etmək iqtidarında olmadığı vurğulanaraq BMT-dən, eləcə də Sakit Okean hövzəsi ölkələrinin rəhbərlərindən prosesə müdaxilə etmək tələb olunur. Onlar iğtişaşların səbəbi kimi, Fransa hökumətinin Yeni Kaledoniyada seçki qanunvericiliyini zorla dəyişmək inadından qaynaqlandığını qeyd ediblər.

"Son aylarda Kanak liderləri dəfələrlə yerli xalqların öz müqəddəratını təyinetmə hüququnu təhlükə altına alan və ərazinin gələcək statusu ilə bağlı davam edən dinc dialoqu təhdid edən yerli seçki qanunvericiliyinə təklif edilən konstitusiya dəyişikliyinin geri götürülməsinə çağırışlar ediblər", - bəyanatda qeyd olunub.

Makron hökumətini müstəmləkəçilikdə ittiham edən sənədin müəllifləri Fransa tərəfindən birtərəfli qaydada təklif olunan bu dəyişikliklərin Kanak xalqını öz torpağında azlığa çevirəcəyini və onların azadlığa gedən yollarını bağlaya biləcəyini vurğulayıb: "Aydındır ki, Fransa höküməti Makronun rəhbərliyi altında bu dekolonizasiya prosesinə nəzarət etmək iqtidarında deyil və yararsızdır. BMT daha ədalətli və dinc keçidi bərpa etmək üçün müdaxilə etməlidir".

Baş verən proseslərin təhlili göstərir ki, Fransanın neokolonial siyasəti Fransa qoşunlarının Mali, Niger və Burkina-Fasodan çıxarılması ilə başlayan və Yeni Kaledoniyadakı hazırkı etiraz aksiyaları ilə bitən bir sıra son hadisələrdən sonra iflasa məhkumdur.

✍ *Ləman Əliyeva*

## Müsahib

***Son zamanlar ABŞ-Azərbaycan münasibətlərində müsbətə doğru dəyişikliklər diqqət çəkir. Üçtərəfli Brüssel görüşündən sonra ABŞ dövlət katibi Entoni Blinkenin Prezident İlham Əliyevə telefon zəngi, köməkçisi Ceyms o`Braynın Azərbaycan-Ermənistan arasında sülhlə bağlı açıqlaması, bu yaxınlarda əvvəllər işğaldan azad olunan torpaqlara səfərdən imtina edən ABŞ səfirinin Şuşaya getməsi sanki Vaşinqtonun Azərbaycanla münasibətləri normallaşdırmaq, ziddiyyətləri aradan qaldırmaq istəyini ortaya qoyur. ABŞ Azərbaycanla münasibətləri normallaşdırmaq istəyində nə dərəcədə səmimidir və bu, nə qədər realdır? Azərbaycan-Amerika Birləşmiş Ştatları parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Jalə Əliyeva "Həftə içi"nə müsahibəsində müəyyən məqamlara diqqət çəkib.***



**Jalə Əliyeva,**
Milli Məclisin deputatı

# ABŞ-la münasibətlərdə yaxınlaşma hiss olunur

***- Amerka Birləşmiş Ştatları (ABŞ) Azərbaycanla münasibətlərinin normallaşması istiqamətində hansı addımları atır və bu istiqamətdə vəziyyəti necə dəyərləndirmək olar?***

- ABŞ dünyanın ən güclü dövlətlərindən biridir. Heç kimə sirr deyil ki, dünyanın idarə edilməsində ABŞ-ın rolu və təsir mexanizmləri öz qüvvəsindədir. Eyni zamanda, hər zaman dünyada ədalət və demokratik dəyərləri qorumaq əzmində olduğunu bəyan edən Birəşmiş Ştatlar təəssüflər olsun ki, 30 il Azərbaycanda yaradılan münaqişəyə qarşı ATƏT-in Minsk qrupunda təmsil olunan həmsədr dövlət kimi heç bir adekvat addım atmadı. ABŞ münaqişənin sülh və ədalətli həlli üçün öz nüfuzundan istifadə etmədi, bitərəfli mövqe tutdu. Təkcə Amerika deyil, bir çox Avropa ölkələri bu günə qədər də eyni mövqedən çıxış edirlər. Hətta torpaqlarımızı işğaldan azad edəndən sonra da ölkəmizə qarşı qərəzli addımlar atıldı və bu ölkənin səfiri işğaldan azad olunan torpaqlara səfər etməkdən boyun qaçırdı. Təbii ki, münasibətlərimizdə zaman-zaman müəyyən narahatlıqlar olub. Ölkə Prezidentinin də söylədiyi kimi, Azərbaycan demokratik, müstəqil bir ölkədir, öz addımlarını müstəqil şəkildə atır və heç bir dövlət onun daxili işlərinə müdaxilə edə bilməz. Eləcə də BMT-də bu ədalətsizliyin çözülməsi, torpaqların işğaldan azad edilməsi üçün səslərini yüksəldə bilərdilər, amma etmədilər.

> “
> *ABŞ-Azərbaycan arasında münasibətlərin normallaşmasını zəruri edən reallıqlar ortadadır*

Son zamanlar isə yenidən ABŞ ilə münasibətlərimizdə bir isinmə, yaxınlaşma nümayiş olunur. Brüssel görüşündən sonra ABŞ dövlət katibinin Azərbaycan Prezidentinə zəng edib məsələ ilə bağlı izahat verməsi, artıq bu qlobal gücün regionda Azərbaycanın mövqeyini, gücünü görüb onunla hesablaşmalı olduğunu dərk etməsinin bariz nümunəsidir. Ümumiyyətlə, bir məsələni xüsusi qeyd etmək lazımdır: Azərbaycan bütün dünya dövlətləri ilə balanslı siyasət aparır, başqalarına hörmətlə yanaşır və daxili işlərinə qarışmayan siyasət yeridir. Azərbaycan dövləti eyni münasibəti özünə qarşı da tələb edir.

***- İki ölkə arasında bu yaxınlasmanı zəruri edən amillər hansılardır?***

- Dünyada və regionda cərəyan edən proseslərə əsasən söyləyə bilərik ki, ABŞ-nin son vaxtlar Azərbaycanla yüksələn xətt üzrə nəzərə çarpan münasibətləri ölkəmizin bölgədə artan nüfuzu, Qərblə-Şərq arasında bir körpü rolunda çıxış etməsi ilə bağlıdır. Bu, Azərbaycanın öz dövlət başçısının timsalında getdikcə möhkəmlənən mövqeyi ilə bağlıdır. Bu gün Birləşmiş Ştatlar, eləcə də digər Azərbaycana qarşı qeyri-stabil, qərəzli münasibət nümayiş etdirən ölkələr birmənalı olaraq anlayırlar ki, Azərbaycanla əlaqələri yaxşılaşdırmaq daha məqsədəuyğundur. Dünyada baş verən coğrafi dəyişikliklərə, bölgənin geosiyasi prizmasından yanaşanda bir çox ölkələr Azərbaycanla münasibətlərini yaxşılaşdırmaqda maraqlı olmalıdır. Elə bu günə qədər torpaqlarımızı işğalda saxlayan Ermənistan özü də sülh müqaviləsinin bağlanmasında, münasibətləri tənzimləməkdə maraqlı olmalıdır. Azərbaycan, sözün əsl mənasında, strateji bir ölkədir. Burada Azərbaycanın təbii sərvətləri, resursları, inkişaf səviyyəsi nəzərə alınmalı, onunla hesablaşmalıdırlar.

***- Azərbaycanın erməni işğalçıları üzərində qələbəsindən sonra keçmiş ATƏT-in Minsk qrupunda olan dövlətlərdən Azərbaycana qarşı yönələn qərəzli çıxışlar nəyə hesablanırdı?***

- Məlumdur ki, keçmiş həmsədr dövlətlər ATƏT-in Minsk qrupunu yenidən canlandırıb həmin qurum üzərindən bölgəyə nüfuz etməyə çalışdılar. Prezidentin də dediyi kimi, bu məsələ artıq tarixin arxivinə qoşub. ATƏT-in Minsk qrupu münaqişə dövründə hadisələrin ən qızğın zamanında Qarabağa turist səfərindən başqa heç nə etmədi. Minsk qrupu illərdən bəri haqqı tapdanan, torpaqları işğal edilən Azərbaycanda qaçqın, köçkün düşən əhalini, yerlə-yeksən edilən abidələrimizi, düşmən tapdağı altında qalan evlərimizin, ocaqlarımızın necə talan edilib dağıdıldığını görməzdən gəldi. Dünyanın başqa nöqtəsində öz maraqlarına cavab verən digər məsələlərdə hər zaman operativ addımlar atdılar. Ermənsitana "dur" deyilmədi. Ölkə Prezidenti Şuşada Mədəniyyətlərarası Dialoq konfransında bir daha çox gözəl şəkildə bəyan etdi ki, Azərbaycan müharibəyə məcbur edildi. Birləşmiş Millətlər Təşkilatının qətnamələrini Azərbaycan özü yerinə yetirməli oldu. Biz özümüz-öz torpaqlarımızda sözümüzü demək məcburiyyətində qalıb, ərazilərimizi azad etdik. Torpaqlar işğaldan azad olunduqdan sonra, ATƏT-in Minsk qrupunda olan dövlətlər yenidən həmin qurumda canlanmaq istəyir. Dırnaqarası fəaliyyətlərini eyni şəkildə bərpa etmək istəyirlərsə, əlbəttə ki, fiaskoya uğrayacaqlar. Bu gün zəfər çalmış güclü Azərbaycan var.

***- İşğaldan azad olunan ərazilərə, o cümlədən Şuşaya səfərdən imtina edən ABŞ səfirinin son Şuşa səfəri istiləşən münasibətlərdən xəbər verir?***

- Bu, münasibətlərdəki dəyişikliyin göstəricisidir. Bir ölkənin təmsilçisi olan səfirinin azad olunan torpağa getməməsi və yaxud uzun fasilədən sonra getməsi, artıq heç bir reallığı dəyişdirmir. Həqiqət göz önündədir. Yaxşı olardı ki, bu isti münasibətin təsiri bölgədə Ermənistanla tez bir zamanda sülh müqaviləsinin imzalanmasına yönəlsin.

***- İki dövlət arasında münasibətləri pozan çətinliklərin arxada qaldığını söyləyə bilərikmi?***

- ABŞ-Azərbaycan arasında münasibətlərin normallaşmasını zəruri edən reallıqlar ortadadır. Bir qədər əvvəl də qeyd etdiyim kimi, artıq ABŞ bunu anlayır. Heç şübhəsiz, Qərbin, Avropanın bölgədə müəyyən maraqları var və bu maraqlardan çıxış edərək bütün vasitələrlə üzərimizdə öz təsirlərini göstərməyə çalışacaqlar. ABŞ bu gün Azərbaycanla həm həqiqi mənada münasibətlərini yaxşılaşdıra, həm də manipulyasiya edə bilər. ABŞ-nin bölgədə iştirak etmək istəməsi həqiqətən də inkişaf məqsədini güdürsə, ikilistandartlı, bitərəfli yanaşmalarından əl çəkməlidir. Ölkəmizi bərabərhüquqlu tərəfdaş kimi qəbul etməli, müstəqil siyasətinə hörmət etməlidir. Ən əsası, Azərbaycanla Ermənistan arasında davam edən sülh prosesinə obyektiv yanaşmalıdır. Regionda sülhə, sabitliyə zərər verəcək bəyanatlardan çəkinməlidirlər.

Azərbaycan heç bir ölkəyə qarşı düşmənçilik siyasəti yeritmir. Əgər ABŞ-nin bu yumşalmalarının arxasında bəd niyyət varsa, Prezidentimizin söylədiyi kimi, yenə də qarşılarında müstəqil, güclü Azərbaycanı və onun dostlarını görəcəklər.

✍ *Tahirə Qafarlı*

# Bələdiyyələrin mövqeyi dayanıqlı olmalıdır

## Layihə

***Azərbaycan vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyir. Qeyd edək ki, vətəndaş cəmiyyətinin formalaşmasında yerli özünüidarəetmə orqanlarının da xüsusi yeri və rolu vardır. Bələdiyyələrin hüquqi statusunun qanun çərçivəsində müəyyənləşdirilməsi ilk dəfə olaraq məhz ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapıb. Dövlətçilik tarixinə mühüm hadisə kimi daxil olan bu tarixi gündən sonra 1999-cu ilin dekabrında ilk bələdiyyə seçkiləri keçirilib.***




Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində dövlətin idarəetmə sistemi daha da təkmilləşdirilmiş, bununla yanaşı yerli özünüidarəetmənin səmərəliliyinin artırılması, bələdiyyələrin səlahiyyət və fəaliyyətinin gücləndirilməsi istiqamətində zəruri tədbirlər davam etdirilib. Nəticədə, respublikamızda bələdiyyə institutu tam olaraq formalaşıb, ölkənin şəhər, qəsəbə və kəndlərində vətəndaşlarımızın rifahı naminə sosial-iqtisadi inkişafın təmin olunmasında fəal iştirak edən yerli özünüidarəetmə sistemi bərqərar edilib. Ölkəmizdə bələdiyyə institutunun inkişaf etdirilməsi məqsədi ilə mühüm qanunvericilik bazası formalaşdırılıb, bələdiyyələrin statusu, qulluğunun təşkili, maliyyəsinin əsasları və digər sahələri əhatə edən çoxsaylı qanunlar qəbul olunaraq onların səmərəli fəaliyyəti üçün dövlət tərəfindən hər cür şərait yaradılıb. Belə ki, bələdiyyələrin fəaliyyətini tənzimləyən ”Bələdiyyələrin statusu haqqında”, ”Bələdiyyə üzvünün statusu haqqında”, ”Bələdiyyələrin nümunəvi Nizamnaməsinin təsdiq edilməsi haqqında”, ”Bələdiyyə qulluğu haqqında”, ”Bələdiyyələrin əraziləri və torpaqları haqqında”, ”Bələdiyyələrin maliyyəsinin əsasları haqqında”, ”Yerli (bələdiyyə) vergi və ödənişlər haqqında”, ”Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında” və digər əhəmiyyətli qanunlar qəbul olunub, Azərbaycan Respublikasının Torpaq, Su, Mülki, Seçki, Vergilər, İnzibati Xətalar məcəllələrinə bələdiyyələrlə bağlı müvafiq müddəalar daxil edilib. Qəbul olunmuş qanunlarda yerli özünüidarəetmənin çox mühüm məsələləri - yerli büdcənin formalaşdırılması, təsdiqi və icrası, yerli vergi və ödənişlərin müəyyən edilməsi, yerli sosial müdafiə, yerli iqtisadi, ekoloji proqramların işlənib hazırlanması və reallaşdırılması, mülkiyyət münasibətlərinin formalaşdırılması, ərazi və digər məsələlər öz əksini tapıb. Eyni zamanda, ölkəmiz yerli özünüidarəetmə ilə bağlı hüquqi münasibətləri tənzimləyən bir sıra beynəlxalq sənədlərə qoşulub, o cümlədən bələdiyyələr üçün başlıca beynəlxalq normativ hüquqi akt hesab edilən ”Yerli özünüidarə haqqında” Avropa Xartiyası Azərbaycan Respublikasının 25 dekabr 2001-d il tarixli qanunu ilə təsdiq edilib. Ümumilikdə, bələdiyyələrin fəaliyyətini tənzimləyən 30-dan çox qanun, 500-dən çox normativ hüquqi akt qəbul edilib, bir çox qanunlara əlavə və dəyişikliklər olunub.

> “ *Bir çox insanlar bələdiyyələrin fəaliyyətini tamamilə inkar edirlər*



**Tahir Rzayev,**
Milli Məclisin Regional məsələlər komitəsinin üzvü

Bununla yanaşı, Prezident İlham Əliyevin təşəbbüsü ilə yerli özünüidarəetmə orqanlarına dövlət dəstəyi gücləndirilib, bələdiyyələrin gəlir və xərclərinin tənzimlənməsi, yerli büdcə kəsirinin örtülməsi məqsədi ilə hər il dövlət büdcəsindən bələdiyyələrə dotasiyalar ayrılıb. Özünüidarəetmənin institusional inkişafına, bələdiyyələrin fəaliyyətlərinin təkmilləşdirilməsinə, yerli əhəmiyyətli sosial məsələlərin həllinin sürətləndirilməsinə xüsusi önəm verilərək bələdiyyələrin işi vətəndaş cəmiyyətinin qurulmasında və demokratik prinsiplərin tətbiqində rolunun artırılması istiqamətləri üzrə qurulmuş, bu sahədə geniş və əhatəli proqramlar hazırlanmış, bələdiyyələrin qabaqcıl təcrübəsi öyrənilərək yayılmış, yerli özünüidarəetmə orqanları ilə dövlət, qeyri-hökumət və donor təşkilatlan arasında əlaqələr qurulmuş, maarifləndirmə işləri aparılmışdır.

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən Milli Məclisin Regional məsələlər komitəsinin üzvü, millət vəkili Tahir Rzayev deyib ki, ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğu gedirsə, cəmiyyət durmadan inkişaf etdirilirsə, onda bu cəmiyyətdə bələdiyyələrin yeri və mövqeyi möhkəm olmalıdır:** “Azərbaycan demokratik sivil ölkədir və ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafı diqqət mərkəzində saxlanılır. Əgər ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğu gedirsə, cəmiyyət durmadan inkişaf etdirilirsə, onda bu cəmiyyətdə bələdiyyələrin yeri və mövqeyi möhkəm olmalıdır. Çünki bələdiyyələr də demokratik inkişafın və vətəndaş cəmiyyəti quruculuğunun bir nümunəsidir. Yerli özünüidarəetmə orqanları yarandığı gündən insanlarla birgə fəaliyyətdədirlər. Əlbəttə ki, bu sahədə mənfi amillər də mövcuddur. Amma həmin amillər zamanla aradan qaldırılır və bələdiyyələrin seçicilərlə qarşılıqlı əməkdaşlığı nəticəsində müəyyən irəliləyişlər əldə olunub. Sözsüz ki, vətəndaş cəmiyyəti olaraq bələdiyyələrin vətəndaşlarla sıx təmasda işləməsi həm onların fəaliyyətinin genişləndirilməsi, onlara yüksək etimadın göstərilməsi, eləcə də ölkənin sosial-iqtisadi inkişafı baxımından əhəmiyyətlidir. Bir çox bələdiyyələr var ki, onlar öz fəaliyyətlərini qanunvericiliyin tələbləri əsasında qura biliblər. Lakin zaman bələdiyyələrin müəyyən qaydada formalaşmasını tələb edir. Bu gün insanların artan tələb və ehtiyacları yerli özünüidarəetmə orqanlarını daha səmərəli işləməyə vadar edir. Təbii ki, bu istiqamətdə müəyyən ıslahatlara gedilməsi, görülən işlərin təkmilləşdirilməsi əhəmiyyətlidir. Bələdiyyələrdə iki dəfə islahatların aparılması, onların sayının azaldılması və birləşdirilməsi özünün müsbət nəticələrini verib. Cəmiyyət də bu prosesləri yaxşı qarşılayır. Çünki onların bələdiyyələrdən umacağı var. Bir çox sosial-iqtisadi, yerli əhəmiyyətli məsələlər var ki, bilavasitə həmin məsələləri bələdiyyələr həll etməlidirlər. Bu məsələlərin həlli insanların rahatlığı üçün çox vacibdir. Ona görə də zaman keçdikcə hökümət tərəfindən bələdiyyələrin inkişafına doğru müəyyən addımlar atılır. Dövlət yerli özünüidarəetmə orqanlarının təkmilləşdirilməsinə daim diqqət yetirir. Bələdiyyə üzvlərinin fəallığının artırılması əsas vəzifələrdən biri kimi qarşıya qoyulub. Gələcəkdə qanunla bələdiyyələrin sayının bir daha azaldılması nəzərdə tutulur ki, bu da daha iri bələdiyyələrin formalaşdırılmasına şərait yaradacaq. Belə ki, qanunla əhali sayı 3000 nəfərdən az olan bələdiyyələr birləşdiriləcək. Bu olduqca əhəmiyyətli islahatdır. İri bələdiyyələr daha yaxşı işlər görməyə malik ola bilərlər. Bu da istər əlaqələrin yaxşılaşdırılması, istər müəyyən təşkilatçılıq işlərinin səmərəli yerinə yetirilməsi üçün önəmli ola bilər”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

Millət vəkili vurğulayıb ki, bu gün vətəndaş cəmiyyətinin inkişafında bələdiyyələrin rolunu qiymətləndirərkən fərqli fikirlər də meydana çıxır: “Bir çox insanlar bələdiyyələrin fəaliyyətini tamamilə inkar edirlər. Bəziləri bununla bağlı nümunələr gətirirlər. Ancaq mən deyərdim ki, bu inkişafda bələdiyyələrin də rolu var. Əgər vətəndaşlar bələdiyyələrə müraciət edirlərsə, onları yeni layihələr həyata keçirməyə həvəsləndirirlərsə, deməli, bələdiyyələr müəyyən mənada ictimai həyatda özlərini göstərib və göstərməkdədirlər. Bizim hər birimiz seçiciyik və cəmiyyət olaraq bələdiyyələrə müəyyən qaydada dəstək verməliyik. Çox təəssüflər olsun ki, bu gün vətəndaş-bələdiyyə münasibətlərində müəyyən problemlər yaşanır.

Əgər bu gün vətəndaşlar bələdiyyələrdən müəyyən hesabatlar tələb edirlərsə, onların maliyyə vəsaitləri ilə maraqlanırlarsa, gördükləri işə nəzər salırlarsa, onlar da bələdiyyələrin iclaslarında fəal iştirak etməlidirlər. Təklifləri, fikirləri ilə bilavasitə yerli özünüidaetmə orqanlarına kömək olmalıdırlar. Etiraf edək ki, bəzən seçici özünün formalaşdırdığı orqanın fəaliyyətinə laqeyd yanaşır. Təbii ki, qarşılıqlı əlaqələrin olmaması müəyyən problemlər yaradır. Görülən işlər, qarşıda duran vəzifələr, həyəta keçirilən layihələr, qəbul edilən qərarlar bələdiyyələrin gələcəyinə ümidlə baxmağa inam yaradır. Sözsüz ki, yerli özünüidarəetmə orqanları bu sahədə özlərinin fəaliyyətini daim artırmağı qarşıya əsas məqsəd kimi qoymalıdırlar”.

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Azərbaycan-Tacikistan münasibətlərində yeni səhifə

◂ əvvəli 2-ci səhifədə

Tacikistan Prezidenti Emoməli Rəhmonun bu dövlət səfəri ölkələrimiz arasında münasibətlərin inkişafında yeni səhifə açacaq. Səfərin məqsədi ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verməkdir. İkitərəfli münasibətlərin gündəliyində olan aktual məsələlərin müzakirəsi məqsədilə Azərbaycanın dövlət başçısının Tacikistanın Prezidenti Emoməli Rəhmon ilə təkbətək və geniş tərkibdə görüşləri keçiriləcək. Səfər çərçivəsində imzalanacaq sənədlər ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsi üçün hüquqi bazanı daha da möhkəmləndirəcək.

Ölkələrimiz arasında münasibətlər parlamentlər səviyyəsində də uğurla davam etdirilir. Azərbaycan Respublikası Milli Məclisində Azərbaycan-Tacikistan parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Tacikistan Respublikasının Ali Məclisinin hər iki palatasında Azərbaycan Milli Məclisi ilə parlamentlərarası dostluq və əməkdaşlıq qrupu mövcuddur.

Ölkələrimizi tarixi dostluq əlaqələri, siyasi, humanitar və digər sahələrdə münasibətlər də birləşdirir. Azərbaycan və tacik xalqları arasında tarixi, mədəni və dini bağlılıqlar iki ölkə arasındakı əlaqələrin əsasını təşkil edir. İki ölkə arasında ümumilikdə 70-dən çox sənəd, o cümlədən 2007-ci il martın 15-də “Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə” imzalanıb. Xüsusi vurğulamaq lazımdır ki, dövlətimizin başçısının ötən il Tacikistana dövlət səfəri çərçivəsində müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdirilməsinə dair 14 sənəd imzalanıb.

İqtisadi əlaqələrə gəldikdə vurğulamaq lazımdır ki, iki dost ölkə arasında siyasi münasibətlər yüksək səviyyədə olsa da, iqtisadi sahədə əlaqələr ölkələrimizin potensialını tam əks etdirmir. İki ölkə arasında illik ticarət dövriyyəsinin həcmi 6 milyon dollardır ki, bu da çox azdır. Hər iki ölkənin iqtisadi potensialı ticarət dövriyyəsinin əhəmiyyətli dərəcədə artırılmasına imkan verir. Bu ilin ilk dörd ayında iki ölkə arasındakı ticarət dövriyyəsi 78 faiz artıb. Tacikistan Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizindən (Orta Dəhliz) də fəal istifadə edir.

Prezident Emoməli Rəhmonun ölkəmizə dövlət səfəri ərəfəsində - mayın 20-də Bakıda Azərbaycan-Tacikistan İnvestisiya Forumu keçirilib. Forumda Azərbaycanın və Tacikistanın investisiya potensialı, icra olunan layihələr haqqında təqdimatlar nümayiş etdirilib, müxtəlif iqtisadi subyektlər arasında yeni əməkdaşlıqlar müzakirə olunub. Biznes forum çərçivəsində şirkətlər arasında ticarət, dağ-mədən və kənd təsərrüfatı sahələrində əməkdaşlığa dair 8 sənəd imzalanıb.

Qeyd edək ki, 2008-ci il fevralın 7-də Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası Komissiya yaradılıb. İndiyədək komissiyanın altı iclası keçirilib. Beşinci iclas 2022-ci il fevralın 22-23-də Düşənbədə, sonuncu iclas isə ötən il iyulun 7-də Bakıda baş tutub. 2023-cü il mayın 1-dən “Azərbaycan Hava Yolları” QSC tərəfindən Bakı-Düşənbə-Bakı marşrutu üzrə həftədə üç dəfə olmaqla beynəlxalq uçuşların həyata keçirilməsi planlaşdırılır.

İki ölkə arasında elm və təhsil sahəsində münasibətlər də mühüm yer tutur. 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Tacikistan Milli Universitetinin Fəxri Doktoru diplomu təqdim olunub. 2018-ci il avqustun 11-də Azərbaycanda rəsmi səfərdə olan Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmona ADA Universitetinin Fəxri Doktoru diplomu təqdim edilib. Hazırda Azərbaycanda 40-dək tacikistanlı tələbə təhsil alır. Azərbaycan-Tacikistan mədəni əlaqələri də məhsuldarlığı ilə seçilir. Ölkələrimiz arasında qarşılıqlı mədəniyyət günləri və kino həftəsi keçirilib. Belə ki, 2007-ci il dekabrın 18-22-də Azərbaycanda Tacikistan Mədəniyyət Günləri, bir il sonra noyabrın 9-12-də isə Tacikistanda Azərbaycan Mədəniyyət Günləri keçirilib. 2015-ci il martın 9-12-də Bakıda Tacikistan kinosu günləri baş tutub. Mayın 20-də isə Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Tacikistan Mədəniyyət Günlərinin açılışı olub. Paytaxtla yanaşı, Gəncədə də keçirilən mədəniyyət günləri çərçivəsində Bakıda Tacik Kino Günləri də təşkil olunub.

Düşənbədə azərbaycanlı heykəltaraşlar Fuad Əbdürrəhmanovun (Rudəkinin heykəli, 1964-cü il) və Ömər Eldarovun (Sədrəddin Ayinin heykəli, 1978-ci il və İbn Sinanın heykəli, 1980-ci il) əsərləri mövcuddur. 2022-ci ildən əvvəl Bakı və Düşənbə şəhərləri arasında Qardaşlaşma haqqında memorandum imzalanıb. Bundan başqa, Xocənd şəhəri və Gəncə qardaşlaşmış şəhərlərdir.

Bütün bunlar bir daha göstərir ki, iki ölkə arasında münasibətlərin inkişafı üçün böyük potensial var və qarşılıqlı səfərlər əməkdaşlığın sürətlə genişləndirilməsi baxımından mühüm imkanlar yaradır. Tacikistan Prezidenti Emoməli Rəhmonun Azərbaycana dövlət səfəri də ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsinə yeni töhfələr verəcək.

## XƏBƏRİNİZ OLSUN...



■ Azərbaycanda pensiyaçıların 90 %-i sosial sığorta əsaslı pensiya alır. Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib. “Xüsusi şərtlərlə pensiya alanların göstəricisi isə təxminən 10 %-dir. Onların pensiyası sosial sığorta kapitalı ilə deyil, aldıqları əməkhaqqının faizi ilə ölçülür”, - deyə nazir əlavə edib.

■ Bakıda qadın avtobusdan yıxılaraq ölüb. Hadisə Sabunçu rayonu Zabrat qəsəbəsində yerləşən “Ayxan” marketin qarşısında baş verib. Sarvan Məhərrəmovun idarə etdiyi “Daewoo” markalı marşrut avtobusunda olan sərnişin 1964-cü il təvəllüdlü Tamella Nadir qızı Cəfərova nəqliyyat vasitəsi hərəkətdə olarkən açıq qalmış qapıdan yıxılıb.

■ Ordu generalı To Lam Vyetnamın yeni Prezidenti seçilib. Səsvermə 15-ci çağırış Milli Assambleyanın Hanoyda keçirilən yeddinci sessiyası çərçivəsində baş tutub. Nəticədə 66 yaşlı To Lamın dövlət başçısı seçilməsi haqqında qətnaməni iclasda iştirak edən Milli Assambleyanın 472 deputatı dəstəkləyib.



■ Əmək pensiyasının avtomatlaşdırılmış qaydada bir növdən başqa növə keçirilməsi əmək pensiyaçısının daha yüksək məbləğdə hesablanmış digər növ əmək pensiyasına hüququ yarandıqda həyata keçiriləcək. Bu, “Əmək pensiyaları haqqında” qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

■ 2023-cü ildə sığorta bazarında yığımların həcmi rekord həddə çataraq 1,2 mlrd. manatı ötüb. Azərbaycanda sığortalanan predmetlərin sayı 7,3 milyona yaxındır. Bunu Azərbaycan Mərkəzi Bankının baş direktoru Ziya Əliyev deyib. “Sığorta ödənişlərinin həcmi 600 milyon manata çatıb. Sektorun aktivləri isə 2 mlrd. manata yüksəlib”- baş direktor əlavə edib.

■ Azərbaycan Oxatma Federasiyasının növbədənkənar ümumi yığıncağı keçirilib. Sonra Azərbaycan Oxatma Federasiyasının rəhbərliyinə seçki keçirilib. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev federasiyanın prezidenti seçilib.



■ COP29 bütün dünya üçün iqlim gündəliyini irəli aparmaqla bağlı yaxşı imkandır. Bu barədə Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbərinin müavini Zoltan Szalai deyib. ”Bu il COP29 konfransı Azərbaycanda keçiriləcək. Fikrimcə, bu təkcə ölkə üçün deyil, həm də bütün dünya üçün iqlim gündəliyini irəli aparmaqla bağlı mühüm siyasi imkan olacaq”, - deyə o bildirib.

■ Mayın 16-da Rusiya kosmosa yerin aşağı orbitindəki digər cihazlara hücum edə biləcək peyk buraxıb. Bunu Pentaqonun sözçüsü Patrik Rayder deyib. O bildirib ki, ABŞ hökumətinin peykləri də eyni orbitdədir.

# Proporsional seçki tələbi

***Xəbər verildiyi kimi, bir müddət əvvəl Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşəbbüsü və təşkilatçılığı ilə ölkədə fəaliyyət göstərən siyasi partiyaların rəhbərləri bir araya gəldi. Hökumətin siyasi partiyaları dialoqa çağırışı 26 siyasi partiyadan 25-i tərəfindən adekvat qarşılandı. Tədbirə Hesablama Palatası, Maliyyə və Ədliyyə nazirliklərinin nümayəndələri, eləcə də Ədliyyə və Maliyyə nazirliklərinin, Mərkəzi Seçki Komissiyasının, Hesablama Palatasının məsul işçiləri də qatılaraq məruzə ilə çıxış etdilər.***



## Müzakirə

Hakimiyyətlə siyasi partiyalar arasında keçirilən görüşün ölkədə siyasi sabitlik, siyasi dialoqun inkişafı, qarşılıqlı işbirliyinin qurulması üçün hansı imkanları yaratdığı geniş müzakirə olunur. Eləcə də bu iqtidar-müxalifət dialoqunun qarşıdan gələn parlament seçkilərində rolu, əhəmiyyəti, siyasi partiyaların parlament seçkilərinə nə dərəcədə hazır olması, partiyaların özlərini cəmiyyətə qəbul etdirmələri üçün malik olduqları kadr potensialının səviyyəsi və digər məsələlər də aktualdır. "Həftə İçi"nə açıqlama verən siyasi partiya mənsubları görüşlə bağlı fikirlərini bildirib, müəyyən məsələlərə toxunublar.

**■ Böyük Quruluş Partiyasının (BQP) sədri Fazil Mustafa hesab edir ki, ölkəmizdə partiya demokratiyasının inkişafı önəmlidir. Onun sözlərinə görə, idarəetmədə partiya kadrlaşmasının böyük önəmi var və həm də keyfiyyətli idarəetmənin təminatıdır.**

Partiya sədri bildirir ki, hakimiyyətin dialoq formasında bu partiyalarla görüşü müsbət tendensiyadır və bu, son 3-4 ildə daha çox genişlənməyə başlayıb. F.Mustafa tədbirin bilavasitə seçki ilə bağlı düzənlənmədiyini bildirib:

"Görüş parlament seçkilərində partiyaların daha mobil iştirak etməsinə köməklik göstərə bilər. Bu, birbaşa seçki ilə əlaqəli deyil. Hesab edirəm, bu cür qarşılıqlı əməkdaşlıq həm partiyaların xeyrinədir, həm də dövlətin siyasi partiya modelində demokratik institutların inkişafı mənasına gəlməkdədir".

F.Mustafa bildirib ki, siyasi partiyaların parlament seçkilərinə ümumiləşmiş formada necə hazır olduğunu söyləmək çətindir:

"Böyük Quruluş Partiyası iyun ayında növbəti qurultayını keçirəcək və burada seçki strategiyasını bir daha gözdən keçirəcək. Partiya olaraq bu il prezident seçkilərində də çox fəali iştirak elədik. Bu da bizim gücümüzü göstərən əsas amillərdən biridir. Bütün partiyalar da yəqin ki, seçki prosesinə əhəmiyyət verəcəklər və burada da proseslərə ciddi hazıraşacaqlar. Siyasi partiyaların özlərini cəmiyyətə təqdim etmələri üçün proporsional seçki sisteminə keçid önəmlidir. Seçkilərdə partiyanın kadr bazasına daxil olan insanları təqdimetmə fürsəti olur.

Bütün hallarda biz siyasi partiyalar arasında müqayisə aparsaq görərik ki, kadr məsələsində hamı hakim partiyaya uduzur. Bu o demək deyil ki, partiyalarda yetkin kadrlar yoxdur. Bu proseslər daha çox demokratik məzmun aldıqca, partiya təmsilçiliyi genişləndikcə partiyalar daha çox kadrlarla təmsil olunacaqlar".

**■ Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri Arzuxan Əlizadə bildirib ki, siyasi partiyaların bir masa arxasında oturub mövcud problemlərlə bağlı müzakirələr aparması mühüm hadisədir.**

Sədr bildirib ki, 2019-cu ilin noyabr ayında Prezident Admnistrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə işləyən yeni struktur yarandıqdan sonra siyasi partiyalara diqqət artıb. Onun sözlərinə görə, 4 il ərzində siyasi partiyalarla müxtəlif ranqlı görüşlər keçirilib. Son tədbir bu qəbildən olsa da, Admnistrasiyanın müvafiq şöbəsi ilə yanaşı bir sıra dövlət qurumlarının rəhbər vəzifəli şəxslərinin iştirakı məlum görüşün əhəmiyyətini bir qədər də artırıb:

"Tədbirdə mövcud siyasi partiyalar haqqında qanunun izahı, onların fəaliyyəti, istiqamətləri izah olundu. Partiya sədrləri də çıxış edib, fikir və təkliferini bildirdilər".

Bununla yanaşı A.Əlizadə hesab edir ki, bütövlükdə bütün partiyaları bir çətir altında eyniləşdirmək olmaz:

"Siyasi partiyaların müxtəlif elektoratları, cəmiyyətə müxtəlif təsir imkanları var. Eyni zamanda, seçki təcrübəsi olanlar, yeni yaranan partiyalar, seçki təcrübəsi olmayanla da var. AMİP ilk yaranan siyasi təşkilat olaraq kifayət qədər siyasi, seçki təcrübəsinə malikdir. Bütün bunlar seçkilərdə bu və ya digər formada öz sözünü deyəcək".

**■ Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev Prezident Admnistrasiyasının siyasi partiyalarla keçirdiyi görüşü yüksək dəyərləndirib. Onun sözlərinə görə, bu dialoq bütün partiyaların maraqları, dövlət, xalq arasında işbirliyi, ölkədə yaranmış sabitliyin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir:**

"Heç bir vasitəçi olmadan iqtidar-müxalifət dialoqunun baş tutması dövlət, xalq üçün çox müsbət haldır. Bundan sonra xarici kəşfiyyata işləyən partiyaların başqa yerlərdən əli kəsildi.

Partiyalarla hökumət arasında böyük dialoq baş tutdu və belə nəticəyə gəlmək olur ki, bundan sonra da belə davam etdirilməsi nəzərdə tutulur. Partiyaların xalq arasında nüfuzunun artırılması və digər məsələlərlə bağlı işlərin görüləcəyi şübhə doğurmur. Partiyalar proporsional seçki sisteminin bərpa olunması, demokratik seçkilərin keçirilməsi, dairələrdə partiya nümayəndələrinin iştirakı, rayonlarda partiyaların qərərgahla təmin edilməsi, dövlət tərəfindən maliyyələşdirilməsi, o cümlədən qarşıdan gələn parlament seçkilərində iştirak məsələsi bir daha müzakirə edildi".

**■ Ədalət, Hüquq, Demokratiya Partiyasının (ƏHDP) sədr müavini Elçin Mirzəbəyli bildirir ki, hakimiyyətlə siyasi partiyalar arasında keçirilən görüşlər ölkəmizdə siyasi sistemin təkmilləşdirilməsi ilə bağlı aparılan islahatların tərkib hissəsi kimi mühüm əhəmiyyətə malikdir.**

Onun fikrincə, son görüşdə ölkəmizin bütün siyasi spektrini təmsil edən partiyaların iştirakı qarşılıqlı münasibətlərin inkişafı, ölkədə sivil münasibətlər sisteminin formalaşması istiqamətində həyata keçirilən tədbirlərin ardıcıl xarakter daşıdığını sübuta yetirir:

"Siyasi partiyalar haqqında qanun və onun tələbləri qarşılıqlı əlaqələrin inkişafını tələb edən hüquqi sənəddir. Yeni qanunun mənimsənilməsi və bu istiqamətdə siyasi partiyaların fəaliyyətinin qurulması üçün zəruri addımlar atılmalıdır".

E.Mirzəbəyli qeyd edir ki, bir sıra mühüm tədbirlərin keçirilməsinə ehtiyac var və bu, yalnız ölkədə konstitusiya islahatlarının keçirilməsindən sonra mümkündür. Onun sözlərinə görə, bunlardan biri proporsional seçki sisteminin bərpa olunmasıdır. E.Mirzəbəyli, o cümlədən məlum görüşün keçirilməsinin parlament seçkiləri ilə bağlı olmadığına diqqət çəkib:

*"Kadr məsələsində hamı hakim partiyaya uduzur*

*Bütövlükdə bütün partiyaları bir çətir altında eyniləşdirmək olmaz*

*Bundan sonra xarici kəşfiyyata işləyən partiyaların başqa yerlərdən əli kəsildi*

*İndiki halda siyasi partiyaların kadr potensialı ümumi mənzərədən qənaətbəxş görünmür*

*5 min imzanı toplaya bilirsə, həmin 5 min insanın 50 faizi potensial kadrdır*

"Bu, ümumilikdə siyasi partiyaların fəaliyyətinin bütün istiqamətlərini əhatə edir. İstənilən halda, bu qəbildən olan görüşlər, həm də siyasi partiyaların cəmiyyətdəki rolunun artırılmasına xidmət edən faktor kimi də dəyərləndirilə bilər".

Partiya yetkilisi hesab edir ki, indidən hansı siyasi partiyanın seçkiyə hazır-olub olmadığını söyləmək çətindir:

"Siyasi partiyanın fəaliyyətinin təməlini seçkidə iştirak təşkil edir. Partiyalar fəaliyyətdə olduğu dövrlərdə keçirilən bütün seçkilərə hazır olmalı və iştirak etməlidirlər. Bu, həm də onların ideyalarının təbliğ olunması üçün yeganə legitim vasitə hesab olunur".

E.Mirzəbəyli siyasi partiyaların kadr potensialı ilə bağlı birmənalı fikir bildirməyi mümkünsüz sayıb. Onun fikrincə, siyasi partiyaların fəaliyyətinə real məzmun gətirmədən bu barədə fikir söyləmək doğru olmaz:

"İndiki şəraitdə çoxpartiyalı sistemin olmasını arzulayırıqsa bu, proporsional seçkinin bərpasından keçir. Məhz bu halda siyasi partiyalar arasında rəqabət güclənə bilər". E.Mirzəbəyli bildirir ki, indiki halda siyasi partiyaların kadr potensialı ümumi mənzərədən qənaətbəxş görünmür: "Cəmiyyətdə öz potensialı ilə seçilən, yaxud büruzə verməyə çalışan insanların çoxu siyasi partiyalara can atmırlar. Ona görə də siyasi partiyaların cazibədarlığının çoxaldılmasına ehtiyac var. Buna görə də bir sıra mühüm qərarların qəbul edilməsi, konstitusiya islahatlarının həyata keçirilməsi zəruridir".

**■ Gələcək Azərbaycan Partiyasının (GAP) sədri Ağasif Şakiroğlu iqtidarlı, müxalifətli 26 partiyadan 25 - nin vahid formada, heç bir xarici təsir olmadan masa arxasında oturaraq müzakirələr aparmasını mühüm hadisə kimi dəyərləndirib.**

Bildirib ki, parlament seçkiləri öncəsi belə görüşün keçirilməsi həm də qarşıdan gələn seçkilərin, azad demokratik keçiriləcəyinin bir qarantıdır:

"Həmrəylik, milli birlik və ölkəmizin sabit inkişafı üçün mühüm işlər bizi bir araya toplayır. Bu, Azərbaycanda siyasi partiyalar arasında münasibətlərin, dialoqun olmasının açıq nümunəsidir. Eyni zamanda, 2020-ci ildən bu yana konstruktiv yanaşma ilə bərabər sağlam münasibətlərin formalaşmasına yönəlik bir növ hesabat tədbiridir.

Üstəlik, bu, diqtə prinsipi ilə yaşayıb, özlərini bütün ciddi siyasi proseslərdən izolyasiya etmiş şəxslərin siyasi fiaskosudur".

Partiya sədri bildirir ki, qeydiyyata alınmaları üçün tələb olunan 5 min imzanı toplayan siyasi partiyalar seçkilərə hazırdır. Onun fikrincə, əgər bir partiya dövlət qeydiyyatına alınması üçün 5 min imzanı toplaya bilirsə, o 5 minin insanın 50 faizi potensial kadrdır.

**■ Azərbaycan Demokrat Partiyasının (ADP) sədr müavini Taliyət Əliyev Prezident Admnistrasiyasının dövlət qurumları ilə siyasi partiyalar arasında təşkil etdiyi görüşü faydalı və əhəmiyyətli hesab edib. Onun fikrincə, bu, ölkədə siyasi dialoq, siyasi münasibətlərin nizamlanması istiqamətində atılan növbəti mühüm addımdır.**

"İqtidar-müxalifət görüşü Siyasi Partiyalar Haqqında Qanunun tətbiqi məsələsi ilə bağlı idi. Yeni qanun əvvəlki qanunlardan köklü şəkildə fərqlənir. Siyasi partiyalar haqqında yeni qanuna görə, partiyalar 5 min üzvünün məlumatlarını Ədliyyə Nazirliyinə təqdim etməli, nizamnamə və məramnaməyə əlavə və dəyişikliklər olunmalı idi. Siyasi partiyaların fəaliyyətinin yeni qanunvericiliyə uyğunlaşdırılması məsələsi demək olar ki, öz həllini tapıb. Sadəcə, prosedur məsələlərdə müəyyən anlaşılmazlıqlar var ki, onların ortadan qaldırılması üçün aparılan belə müzakirələr öz təsirini göstərməlidir. Görüşdə, eyni zamanda, qarşıda duran problemlər, ölkədəki iqtidar-müxalifət münasibətlərinin tənzimlənməsi və siyasi müstəvidə zəruri islahatların aparılması ilə bağlı təkliflər səsləndirildi. Ümumilikdə, bu görüşü ölkədə iqtidar- müxalifət münasibətlərinin normallaşdırılması və siyasi dialoqun inkişaf etirilməsi istiqamətində atılan pozitiv addım kimi dəyərləndirmək olar". ADP yetkilisi hesab edir ki, iqtidar-müxalifət görüşünün parlament seçkilərinə hansı təsir göstərəcəyi ilə bağlı qabaqcadan proqnoz verməк çətindir:

"Hələ ki, parlament seçkilərinin vaxtı müəyyən olunmayıb. Müxalifət camiyəsi arzu edirdi ki, seçkilər proporsional seçkinin tətbiqi ilə həyata keçirilsin". T.Əliyev hesab edir ki, müxalifət bu seçkilərə hazırdır. Eyni zamanda, bunu yüksək səviyyədə olan hazırlıq kimi dəyərləndirməyi mümkünsüz sayıb.

T.Əliyev partiyaların müəyyən kadr potensialının olduğunu deyib. Onun fikrincə, insanlar partiyaya gəlməklə, seçkilərdə iştirak etməklə dövlət institutlarında təmsil olunma hüququ qazanmalıdır: "Bu bizdə yoxdur və ona görə də kadrlar siyasi partiyalara meyil göstərmir. Buna baxmayaraq, indiki şəraitdə partiyaların öz fəaliyyətinə uyğun kadr bankı var".

*✍ Tahirə Qafarlı*

---

Müsahib

***"Azad Vətən" partiyasının sədri Akif Nağı ilə hafta.az üçün budəfəki söhbətimizdə payızda Milli Məclisə gözlənilən seçkilərə hazırlıq prosesi, İran Prezidentinin və dövlətin digər rəsmilərinin helikopter qəzasında həlak olmasından sonra bu ölkənin daxili və xarici siyasətində, o cümlədən Azərbaycana münasibətində mümkün dəyişikliklər, Putinin Pekində Çin lideri Si Cinpinlə son görüşünün nəticələri və onun dünyadakı, həmçinin Ukrayna və Cənubi Qafqazdakı proseslərə təsirləri, Gürcüstanda kütləvi xalq etirazları ilə müşayiət olunan son olaylar və s. haqda danışdıq.***

# Azərbaycan vəziyyəti düzgün dəyərləndirdi



**Akif Nağı,**
"Azad Vətən"
partiyasının sədri

***- Partiyanız və şəxsən özünüz payızda keçirilməsi gözlənilən parlament seçkilərinə necə hazırlaşırsınız?***

- Partiyamız bütün istiqamətlərdə seçkilərə hazırlaşır. Zatən, partiyanın fəaliyyətinin əsas hissəsi seçkilərlə bağlıdır. Biz də bu formulu fəaliyyətimizdə rəhbər tuturuq. Konkret olaraq müxtəlif dairələrdə şanslarımızı nəzərdə keçirir, qalib gələ biləcəyimiz dairələri təxmini olsa da müəyyənləşdirir, namizədlərimizin siyahısını dəqiqləşdirir, əsas şüarlarımızı seçir və digər işləri həyata keçiririk. Prezident seçkiləri zamanı Seçki Qərargahı yaratmışdıq. Hazırda həmin qərargahın tərkibini yeniləyir, genişləndiririk...

***- Necə hesab edirsiniz, ümumiyyətlə, Milli Məclisə növbəti seçkilər ölkəmizin daxili ictimai-siyasi həyatında hansısa ciddi dəyişikliklərə səbəb olacaqmı?***

- Növbəti parlament seçkilərinin ciddi ictimai-siyasi hadisə olacağına, siyasi sistemin inkişafına əlavə təkan verəcəyinə inanırıq. Son prezident seçkiləri kimi, bu da ərazi bütövlüyümüzün bərpa olunduğu şəraitdə ilk parlament seçkiləri olacaq...

İnanırıq ki, parlamentin tərkibi ciddi şəkildə yenilənəcək.

***- İran Prezidentinin və dövlət digər rəsmilərinin helikopter qəzasında həlak olmasından sonra bu ölkənin daxili və xarici siyasətində, o cümlədən Azərbaycana münasibətində hansısa dəyişikliklər gözlənilirmi?***

- İranın dövlət rəhbərlərinin qəzada faciəli şəkildə həlak olmasına çox təəssüf edir, dünyasını dəyişənlərə Allahdan rəhmət diləyir, doğma və yaxınlarına başsağlığı veririk. Bütün dünyada olduğu kimi, İranda da icraedici orqanlarda çalışanların dövlətin daxili və xarici siyasətinin müəyyənləşdirilməsində ciddi rolu olmur. Prezident İbrahim Rəisi və digərləri rəhbərliyin qəbul etdiyi qərarları yerinə yetirirdi. Ona görə də İranın daxili və xarici siyasətində ciddi dəyişikliklər gözlənilmir. Ali dini rəhbərin komanda üzvlərinin həyatdan getməsi baxımından bu olay bir qədər təsirli ola bilər. Belə ki, ali rəhbər Prezident Rəisi və digərlərini seçib komandasını formalaşdırmışdı. Yeniləri onların yerini doldura biləcəkmi, demək çətindi... Xarici siyasətdə də İranın ali rəhbərinin xətti davam etdiriləcək. Azərbaycanla münasibətlər də, böyük ehtimalla, yüksələn xətlə davam edəcək. Son dövrdə münasibətlərdəki istiləşmə hər iki tərəfin maraqlarına cavab verirdi və yəqin ki, bu xətt davam etdiriləcək...

*"Bismark deyirdi ki, Rusiya ilə zarafat etməyin...*

***- Putinin Pekində Çin lideri Si Cinpinlə son görüşünün nəticələrini və onun dünyadakı, həmçinin Ukrayna və Cənubi Qafqazdakı proseslərə mümkün təsirlərini necə dəyərləndirərdiniz?***

- Rusiya ilə Çin açıq şəkildə müttəfiqlik nümayiş etdirirlər. Seçkilərdən sonra qarşılıqlı ilk səfərlərlə də bu münasibət özünü aydın şəkildə göstərdi. Çin yüksələn xətlə inkişaf edir, Rusiya isə həmin ölkənin rəhbərlərinə bu yüksəlişi davam etdirmək üçün lazımdır. Çin Rusiyanın böyük, geniş xammal, enerji daşıyıcıları və sair resurslarından yararlanır. Rusiya siyasi və iqtisadi cəhətdən eniş, bəlkə də iflas dövrünü yaşayır. Odur ki, bu ölkənin rəhbərləri Çinlə bir yerdə olmaqla bu prosesi ləngitməyə çalışırlar. Həm də hər ikisi ABŞ təhlükəsi ilə üz-üzədirlər. Ona görə də hələlik bir yerdə olacaqlar... Çin-Rusiya yaxınlaşmasının dünyada gedən proseslərə, o cümlədən Cənubi Qafqaza müəyyən təsiri ola bilər, amma o qədər də ciddi təsir edəcəyi inandırıcı deyil...

***- Gürcüstandakı proseslərin sonunu necə görürsünüz? Kütləvi xalq etirazlarına rəğmən xarici agentlər haqqında qanun qəbul edildi. Lakin qarşıda - oktyabrda parlament seçkiləri var Bu da xalqa, müxalifətə yeni şans verir. Bir sözlə, sizcə, bu minvalla Gürcüstan Rusiyanın caynağından qurtulub Avropaya doğru yolunu davam etdirə biləcəkmi?***

- Gürcüstan çətin seçim qarşısındadır. Bir tərəfdən, vaxtilə Rusiya ilə sərt qarşıdurmaya getdilər və ərazilərinin bir hissəsini itirdilər. Digər tərəfdən, Avropa verdiyi vədlərə əməl etmir, Avrointeqrasiya gürcülərə bir şey vermədi, ərazi bütövlüyü bərpa olunmadı. İndi Tiflis Avropa məcrasına o ümidlə qayıtmaq istəyir ki, ərazilərini qaytarsın. Qaytara biləcəkmi, aydın deyil. Avropa da belə görünür ki, Gürcüstanı ərazi itkiləri ilə öz ailəsinə qəbul etmək istəyir. Gürcülər bu iki seçim arasındadırlar...

Avropa tərəfdarları, həm də iqtisadi maraqlarla hərəkət edirlər. Etiraz edən kəsimin əksəriyyəti Avropa və bütövlükdə, Qərb fondlarından maddi cəhətdən asılıdırlar. Bu cür asılılıq isə yaxşı hal deyil, dövlətin müstəqilliyinə öldürücü təsir göstərə bilər. Etirazçılar Avropa dəyərlərindən daha çox maddi maraqlarını müdafiə edirlər. Bu da onların çıxışlarını davamlı edir. Avropa da onlara ciddi dəstək verir. Ona görə də hərəkat yüksələn xətlə davam edir. Hiss olunur ki, hərəkat artıq kulminasiya nöqtəsinə çatıb və indi enmə mərhələsi başlayıb. Hakimiyyət bir qədər davam gətirsə, etirazlar səngiyəcək. Mən gürcülərin daxili işlərinə müdaxilə etməkdən uzağam, lakin bizim üçün də aktual olan bir məqamı qeyd etmək istəyirəm; milli, dövlət maraqları hər şeydən, o cümlədən "Avropa dəyərləri" deyilənlərdən üstün tutulmalıdır. Bu düstur bütün dövrlər və şəraitlər üçün keçərlidir...

***- Deyirsiniz ki, Avropaya inteqrasiya cəhdləri Gürcüstana heç nə vermədi, Qərb öz vədlərini yerinə yetirmədi, ölkənin ərazi bütövlüyü bərpa olunmadı və s. Bəlkə Qərb, ABŞ və ya Avropa hansısa postsovet ölkəsi kimi Gürcüstanda da verdiyi vədləri yerinə yetirməyə çalışsa da, buna regionda hələ də güclü dayaqlara malik olan Rusiya əngəl törədir? Vaxtilə, yəni 2020-ci ilin 44 günlük savaşınadək keçən onilliklərdə Azərbaycanda da, xüsusən Qarabağın azad edilməsi məsələsində oxşar proseslərin şahidi olmuşuq...***

- Rusiyanın regionda siyasi, hərbi, ideoloji baxımdan elə də güclü dayaqları, tərəfdarları yoxdur. Rusiya kobud hərbi güc amilidir, istənilən vaxt heç kəsin gözləmədiyi fəlakətli addımlar ata bilər. Hələ Almaniya rəhbəri Bismark deyirdi ki, Rusiya ilə zarafat etməyin, ağlasığmayan axmaqlıqla cavab verə bilər. Bu gün vəziyyət o qədər də dəyişməyib. Avropa bunu bilir və Rusiya ilə açıq qarşıdurmadan çəkinir. Vaxtaşırı regionun bəzi "ağıllı" liderlərini "əjdahanın ağzına atır" və kənardan durub tamaşa edir. Bununla, bir tərəfdən, azdan-çoxdan Rusiyanln zəifləməsinə nail olmağa çalışır, digər tərəfdən, yoxlayır ki, görək nə qədər gücü qalıb. Kobud da olsa, Avropa-Rusiya çəkişmələrini bu şəkildə təsvir etmək olar. Şükürlər olsun, Azərbaycan vəziyyəti düzgün dəyərləndirib, kimlərinsə maraqlarının alətinə çevrilmədi, bizi alət etmək istəyənlərin özlərindən alət kimi istifadə edə bildik...

***- Necə düşünürsünüz, Azərbaycan daxilində ölkəmizin müstəqilliyini xor baxan, onu yenidən Rusiyanın birbaşa idarəçiliyinə yönəltmək istəyən qüvvələr varmı?***

- İndi bizdə elə qüvvələr yox dərəcəsindədir. Başa düşürlər ki, Azərbaycanın müstəqilliyi dönməz xarakter alıb. Dövlətimizin dayaqları möhkəmdir, müstəqilliyimizin aşiqləri isə daha çox, milyonlarladır...

*✍ Sultan Laçın*

# Aviaqəzaların qurbanı olan dövlət başçıları

*İranın mərhum prezidenti İbrahim Rəisinin olduğu helikopterin qəzaya uğraması nəticəsində dövlət başçısı və yanındakıların həlak olması dünya mətbuatının ən çox diqqət yetirdiyi olay oldu. Hadisənin texniki səbəbdən və pis hava şəraiti üzündən baş verdiyini, artıq rəsmi Tehran təsdiqləyib. Qeyd edək ki, İran Prezidentini daşıyan helikopterin qəzaya uğraması bu zamana qədər belə qəzalarda həlak olan dövlət və hökumət başçıları ilə bağlı olaylara marağı artırıb. Hafta.az bu marağı nəzərə alaraq bu zamana qədər dünyada təyyarə və helikopter qəzalarında həlak olan dövlət və hökumət başçıları ilə bağlı kiçik bir araşdırma aparıb.*



## Araşdırma

**1. İsveç baş naziri Arvid Lindman (1936)**

İsveçin kontr-admiralı və iki dəfə baş nazir olmuş Salomon Arvid Achates Lindman 1936-cı il dekabrın 9-da göyərtəsində olduğu Duqlas DC-2 təyyarəsi qalın dumanda uçuş zamanı Böyük Britaniyanın Kroydon hava limanı yaxınlığındakı evlərə çırpıldıqdan qısa müddət sonra faciəvi qəzada ölüb.

**2. Paraqvay Prezidenti Xose Feliks Estiqarribia (1940)**

1940-cı il sentyabrın 7-də Paraqvay Prezidenti Xose Feliks Estiqarribiya və həyat yoldaşı təyyarə qəzasında həlak olublar. Təyyarənin təyinat yerinə yaxın dumanlı havada çırpıldığı və pilotun kursdan çıxdığı bildirilir. Pilot da dünyasını dəyişib.

**3. Filippin Prezidenti Ramon Maqsaysay (1957)**

Filippinin yeddinci prezidenti Ramon Maqsaysay 1957-ci il martın 17-də C-47 qəzasında həlak olub. Təyyarə Sebu şəhərində Manunqqal dağına çırpılıb. 25 sərnişindən yalnız biri sağ qalıb.

**4. Braziliya Prezidenti Nereu Ramos (1958)**

Bir müddət Braziliyanın müvəqqəti prezidenti vəzifəsini icra edən Nereu Ramos 1958-ci il iyunun 16-da vəfat edib. Ramos Cruzeiro do Sul təyyarəsi ilə uçarkən Parana əyalətində Kuritibanın Afonso Pena beynəlxalq hava limanı yaxınlığında qəzaya uğrayıb.

**5. Mərkəzi Afrika Respublikasının Prezidenti Bartelemi Boqanda (1959)**

29 mart 1959-cu ildə Mərkəzi Afrika Respublikasının prezidenti və müstəqillik qəhrəmanı Bartelemi Boqanda təyyarəsinin qəzaya uğraması nəticəsində dünyasını dəyişib.

**6. BMT-nin Baş katibi Dag Hammarskjold (1961)**

1961-ci il sentyabrın 18-də Konqoda sülh vasitəçisi kimi çıxış edən BMT-nin ovaxtkı baş katibi Daq Hammarskjoldun təyyarəsi Zambiyada qəzaya uğrayır. Qəzada Hammarskjöld də daxil olmaqla 16 nəfər həlak olub.

**7. İraq Prezidenti Əbdül Salam Arif (1966)**

13 aprel 1966-cı ildə İraq Hərbi Hava Qüvvələrinə məxsus de Havilland DH.104 Dove 1 sərnişin təyyarəsi (qeydiyyat RF392) İraqın cənubunda Bəsrə hava limanından 10 km aralıda qəzaya uğrayıb. Təyyarədə ölkə prezidenti Əbdül Salam Arif olub və ölüb. Versiyalardan birinə görə, qəzanın səbəbi Baas Partiyasına rəğbət bəsləyən hərbçilərin təxribatı olub.

**8. Braziliya Prezidenti Humberto de Alenkar Kastelo Branko (1967)**

Braziliyanın 26-cı prezidenti və keçmiş hərbi diktaturanın əsas fiqurlarından biri olan Humberto de Alenkar Kastelo Branko 1967-ci il iyulun 18-də vəfat edib.

Prezidentlik müddəti başa çatdıqdan az sonra Castelo Brankonun Piper PA-23 Aztec təyyarəsi havada Braziliya Hərbi Hava Qüvvələrinə məxsus Lockheed T-33 ilə toqquşub və nəticədə o, ölüb.

**9. Boliviya Prezidenti Rene Barrientos (1969)**

27 aprel 1969-cu ildə Boliviya Prezidenti Rene Barriendos Ortuno Arke qəsəbəsi (Boliviyanın mərkəzindəki Koçabamba departamenti) yaxınlığında vertolyot qəzası nəticəsində həlak olub. Vertolyot elektrik xəttinə ilişib.

**10. Yuqoslaviyanın Baş naziri Camal Biediç (1977)**

1977-ci il yanvarın 18-də Yuqoslaviyanın Baş naziri Cemal Biediçin "Learjet 25" təyyarəsi Bosniya və Herseqovinanın Kresevo şəhəri yaxınlığındakı İnac dağına çırpılıb. Qəzada Bidjediç, həyat yoldaşı və daha 6 nəfər həlak olub.

**11. Mavritaniyanın Baş naziri Əhməd Ould Bousseif (1979)**

27 may 1979-cu ildə Afrika sammitində iştirak etmək üçün Mavritaniyanın Baş naziri Əhməd Ould Bousseifi daşıyan təyyarə Dakar sahillərində qəzaya uğrayıb. Buseif bədbəxt hadisə nəticəsində dünyasını dəyişib.

**12. Portuqaliyanın Baş naziri Fransisko Sa Karneyro (1980)**

4 dekabr 1980-ci ildə Portuqaliyanın baş naziri Fransisko Sa Karneyro və müdafiə naziri Adelino Amaro da Kostanın təyyarəsi havaya qalxdıqdan dərhal sonra paytaxt Lissabonda qəzaya uğraması nəticəsində həlak olub.

**13. Ekvador Prezidenti Xayme Roldos Aqilera (1981)**

24 may 1981-ci ildə Ekvador Prezidenti Xayme Roldos Aqilera və müdafiə naziri general-mayor Marko Subia Martinez, Peru sərhədi yaxınlığında olduqları təyyarənin qəzaya uğraması nəticəsində həlak olublar.

**14. Panama Prezidenti Omar Torrijos (1981)**

31 iyul 1981-ci ildə Panama Prezidenti Omar Torrixos idarə etdiyi kiçik təyyarənin meşədə qəzaya uğraması nəticəsində həlak olub.

**15. Mozambik Prezidenti Samora Macel (1986)**

10 oktyabr 1986-cı ildə Mozambik Prezidenti Samora Macel və bir neçə Mozambik nazirini daşıyan iki mühərrikli təyyarə Mozambik-Cənubi Afrika sərhədi yaxınlığında qəzaya uğrayıb. Qəzada Machel, bəzi nazirlər və Mozambik hökumətinin yüksək vəzifəli məmurları da daxil olmaqla 33 nəfər həlak olub. Qəzadan sonra aparılan araşdırma zamanı pilot günahkar bilinib.

**16. Livanın Baş naziri Rəşid Karami (1987)**

1 iyun 1987-ci ildə Livanın Baş naziri Rəşid Karami Beyruta gedərkən göyərtəsində olduğu vertolyotun partlaması nəticəsində həlak olub. Onun oturacağının arxasına yerləşdirilmiş, təxminən, 300 qram ağırlığında uzaqdan idarə olunan bomba az sonra partlayıb.

**17. Pakistan Prezidenti Ziyaülhəq (1988)**

1988-ci il avqustun 18-də Pakistan Prezidenti Ziyaülhəq, onun beş generalı və ABŞ səfiri Arnold Lyuis Rafelin olduğu C-130 hərbi təyyarəsi paytaxt İslamabaddan, təxminən, 530 kilometr cənubda, Bəhavalpur yaxınlığında qəzaya uğrayıb. Sağ qalanların olmadığı qəzada müstəntiqlər diqqəti təxribat ehtimalına yönəldiblər.

**18. Burundi və Ruanda prezidentləri Cyprien Ntaryamira və Juvenal Habyarimana (1994)**

6 aprel 1994-cü ildə Ruanda Prezidenti Juvenal Habyarimana və Burundi Prezidenti Kiprien Ntaryamiranı (hər ikisi Hutu) daşıyan təyyarə Ruandanın Kiqali şəhərinə enməyə hazırlaşarkən yer-hava raketləri ilə vurulub. Təyyarədə olan 12 nəfərin hamısı həlak olub.

**19. Makedoniya Prezidenti Boris Traykovski (2004)**

26 fevral 2004-cü ildə Makedoniyanın ikinci prezidenti Boris Traykovski və onu müşayiət edən nümayəndə heyətini aparan təyyarə Bosniya və Herseqovinanın Mostar şəhəri yaxınlığında qəzaya uğrayır. Qəza nəticəsində Traykovski və onun müşavirləri də daxil olmaqla 8 nəfər həlak olub. Təyyarə qəzası "pilot səhvi" nəticəsində baş verib.

**20. Polşa Prezidenti Lex Kaçinski (2010)**

2010-cu il aprelin 10-da, içərisində Polşa Prezidenti Lex Kaçinski və həyat yoldaşı da daxil olmaqla, 96 nəfərin olduğu Tu-154 təyyarəsi Rusiyanın Smolensk hava limanına enərkən qəzaya uğrayıb. Prezident və onun nümayəndə heyəti Katın qurbanlarının xatirəsinə təşkil olunmuş yas mərasimində iştirak etməli idi. Eniş zamanı təyyarə meşəyə çırpılıb; sağ qalan olmayıb. Fəlakətə səbəb pilotların səhvləri və uçuşun təşkilindəki çatışmazlıqlar olub.

**21. Çili Prezidenti Sebastian Piner (2024)**

2024-cü il fevralın 5-də Çilinin keçmiş prezidenti Sebastian Pinera və onu müşayiət edənləri daşıyan Robinson R-66 helikopteri Los Rios bölgəsində Ranko gölünə düşüb. Helikopter havaya qalxdıqdan az sonra güclü yağış və qalın duman səbəbindən qəzaya uğrayıb. Üç nəfər gölə tullanaraq sahilə çata bilsə də, Pinera təhlükəsizlik kəmərini açıb bilmədiyi üçün dünyasını dəyişib.

✍ *Vüsal*

---

## Cəmiyyət

***A**zərbaycanda yaxın 3-4 il ərzində insan müdaxiləsi olmadan işləyən bankçılıq və ödəniş sistemləri fəaliyyətə başlayacaq. Bunu Maliyyə Monitorinq Xidmətinin nəzarət və hüquq-mühafizə orqanları ilə iş üzrə departamentinin direktoru Nurlan Babayev Bakıda keçirilən Fintex Sammitində deyib. Onun sözlərinə görə, ölkəmizdə rəqəmsal ödənişlərdə fırıldaqçılığın qarşını almaq üçün yeni fəaliyyət planı hazırlanacaq: "Azərbaycanın maliyyə sektoru texnoloji həllərin, machine learing (ML) və blokceyn texnologiyalarının tətbiqi, eləcə də mövcud risk idarəetmə sistemlərinə inteqrasiyası ilə yaxın gələcəkdə (3-4 ildə) insan müdaxiləsi olmadan işləyən bankçılıq və ödəniş sistemlərinə sahib olacaq.***

# Bank mütəxəssisləri işsiz qalacaq?



Eyni zamanda, ölkəmizdə rəqəmsal ödənişlərdə fırıldaqçılığın qarşını almaq üçün yeni fəaliyyət planı hazırlanacaq. Bu bankçılıqda ənənəvi bankçılıqla müqayisədə risklər kifayət qədər aşağı olacaq. Bununla da maliyyə sektorunun bütövlüyü və təhlükəsizliyi də qorunacaq. Təxmini arzu etdiyim sistem budur. Tənzimləyicilər olaraq da bunun fərqindəyik. Hesab edirik ki, istər elektron pul, istərsə də ödəniş təşkilatları risklərin ölçülməsində maraqlı olmalıdır".

Bəs, görəsən, bu sistemə keçid bank sektorunda kütləvi ixtisarlara gətirib çıxara bilərmi?

■ **Məsələ ilə bağlı bizimlə fikirlərini bölüşən bank məsələləri üzrə ekspert Əkrəm Həsənov hesab edir ki, bu addım banklarda işçilərin ixtisarına səbəb olacaq:**

"Bu gün təkcə bank sahəsində deyil, digər sahələrdə də yeni həllərin tətbiqi istiqamətində addımlar atılır. Əslində bank sektorunda bu proses 20 ilə yaxın bir müddətdir ki, gedir. Bankomatların istifadəyə verilməsi və ilbəil sayının artırılması bunun əyani sübutudur. Və yaxud son illər bank kartlarının sayının kəskin şəkildə artdığını müşahidə edirik. Bu addımlar ona gətirib çıxardı ki, banklarda əməliyyatçıların, kassirlərin sayı əhəmiyyətli dərəcədə azaldıldı. Yəni, proses gedir və gələcəkdə bu sahədə daha çox işçilərin ixtisar olunduğunun şahidi olacağıq".

■ **Mövzu ilə bağlı İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri Ruslan Atakişiyev qeyd edir ki, rəqəmsal bank gələcək dövrün tələbidir: "Bu gün dünyada banklar şöbəsiz, filialsız olaraq fəaliyyət göstərir.** Yəni yeni açılan bankların əksəriyyəti bu şəkildə açılır. Bankların bu şəkildə fəaliyyəti, təbii ki, müəyyən sayda işçilərin ixtisarı deməkdir. Bu addım ümumilikdə bank sektorunun insanlara xidmətinin effektivliyini artırmış olacaq. Ucqar bölgələrdə belə insanlar rahat şəkildə banklardan istifadə imkanı qazanacaqlar. Bank sektorunun inkişafında əsas hədəf işçini işində saxlamaq deyil, daha yaxşı xidmət göstərməkdir. İşçiləri işində saxlamaq hədəf olduğu zaman hansısa şöbələrdə insanlar növbə gözləməli olacaqlar. Bu da öz növbəsində ucqar ərazilərdə müəyyən çətinlik yaradacaq. Əgər insan müdaxiləsi olmadan işləyən bankçılıq və ödəniş sistemləri fəaliyyətə başlayarsa, bu istənilən ucqar bir yerdə, hətta dağın başında belə bank xidmətinə asan şəkildə çıxış imkanı yaradacaq". Onun sözlərinə görə, rəqəmsal bankçılığın inkişafı daha çox bu sahədə sənədləşmə işləri aparan şəxslərin ixtisarı ilə nəticələnəcək.

> *Bu addımlar ona gətirib-çıxardı ki, banklarda əməliyyatçıların, kassirlərin sayı əhəmiyyətli dərəcədə azaldıldı*

> *Bu gün bank sektorunun inkişafında əsas hədəf işçini işində saxlamaq deyil, daha yaxşı xidmət göstərməkdir*

✍ *Sevinc*

---



■ **Əgər vətəndaşın eyni anda iki hüququ yaranarsa, məsələn, həm ailə başçısını itirməyə görə, həm də yaşa görə pensiya almaq hüququ olursa, mövcud qanunvericiliyə əsasən bir pensiyadan digərinə keçid yalnız onun yazılı müraciətindən sonra baş verə bilər. Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib.**

"Vətəndaş desə ki, yaşa görə verilən pensiyanı yox, ailə başçısını itirməyə görə verilən pensiyanı istəyir, bu zaman müraciət edir və onun hüququ təmin edilir. Biz də ən yüksək pensiya hansıdırsa, onu təyin edəcəyik. Bu, təqribən, ilə 6-7 min insanı əhatə edir. Bəzən heç onların məlumatı da olmur ki, onların iki hüququ var.

MADE IN TURAN

■ **Azərbaycanın təşəbbüsü ilə Türk dünyası markalarını birləşdirən "Made in Turan" brendi yaradılıb. Bu barədə "APA-Economics"ə açıqlamasında Azərbaycan Françayzinq Assosiasiyasının (AFA) idarə heyyətinin sədri Camid Mövsümov deyib.**

O bildirib ki, layihənin ideya müəllifi AFA-dır. Layihədə əsas iştirakçı ölkələr kimi 7 türk dövlətinin, həmçinin Macarıstanın daxil edilməsi planlaşdırılır. Marka sözügedən ölkələrdə bütün istehsal edilən məhsullara şamil edilə bilər. "Cənubi Koreyadan, Kanadadan, Türkiyədən bu markanın tətbiqi ilə bağlı artıq müraciətlər var. Mayın 22-dən artıq prosesə start verilir, struktur hazırlanır.



■ **Norveç Fələstin dövlətini rəsmən tanıdığını elan edib. Bu barədə Norveç Baş naziri Yonas Qar Störe bildirib.**

"Onminlərlə insanın öldüyü və yaralandığı müharibənin ortasında həm israillilərə, həm də fələstinlilərə siyasi həll təklif edən yeganə alternativi qoruyub-saxlamalıyıq: iki dövlət, sülh və əmin-amanlıq içində yan-yana yaşamaq", - Baş nazir deyib. Baş nazir, həmçinin vurğulayıb ki, Fələstinin tanınması uzun sürən və qəddar münaqişədə mövqelərini itirən mötədil qüvvələrə dəstək üçün zəruridir. O, qərarın mayın 28-də qüvvəyə minəcəyini açıqlayıb: "Həmin gün bizimlə həmfikir bir sıra Avropa ölkələri də Fələstini rəsmən tanıyacaq".




■ **Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Katibliyi COP29 ərəfəsində yüksək səviyyəli dialoq keçirəcək. Trend xəbər verir ki, bu barədə OPEC-in "X" səhifəsində məlumat paylaşılıb.**

"Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Haysam Əl-Qays Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri və COP-29-un prezidenti Muxtar Babayevi Vyanada OPEC Katibliyində tarixi və COP sədrinin OPEC-ə tarixdə ilk səfəri çərçivəsində salamlayır", - məlumatda deyilir.



■ **COP29-da 4 prioritet məsələ müzakirə olunacaq. Bu barədə BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyeva ADA Universitetində keçirilən "İqlim dəyişmələri ilə mübarizənin imkanları və çağırışları. Avropa və regional perspektivlər" mövzusunda semninarda deyib.**

"COP29-da tərəflərin müəyyənləşdirməli və qərar verməli olduğu dörd mühüm prioritet mövzu var", - deyə o bildirib. Onun sözlərinə görə, bu, birincisi, bunlar milli səviyyədə müəyyən edilən töhfələr (NDC), ikincisi, kömür idxalı üzrə saziş, üçüncüsü, Paris Sazişinin 6-cı maddəsi üzrə razılaşmanın yekunlaşdırılması üzrə səylərdir.



■ **ABŞ Konqresinin büdcə idarəsi ölkənin dövlət borcunun 2054-cü ilədək ümumdaxili məhsulun (ÜDM) 166 faizinə çatacağını proqnozlaşdırır ki, bu da ölkə üçün rekord göstəricidir.**

Bu barədə ABŞ Konqresinin büdcə idarəsinin dərc etdiyi məlumatlarda deyilir. Məlumatlara əsasən, ABŞ-nin dövlət borcu 2024-cü ildəki göstəricidən, yəni ÜDM-in 99 faizindən 2054-cü ildə ÜDM-in 166 faizinə çatacaq. Qeyd olunub ki, ABŞ-nin dövlət borcu qeydə alınmış rekord göstəricilərini ötəcək və artmağa davam edəcək. Həmçinin o da qeyd olunub ki, ABŞ-də özəl investisiyalar azalarsa və ya dövlət gəlirləri və xərcləri 30 il ərzində orta göstəricilərdə saxlanılarsa, ölkənin dövlət borcu 2054-cü ildə ÜDM-in 250 faizini də ötə bilər.

# Ali məktəblərə attestatla qəbul

***Azərbaycanda attestatla ali məktəbə qəbul hələ ki, gözlənilmir. Bunu Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib. O bildirib ki, sıfır balla da attestat alan var: “Amma bu balla universitetə qəbul olmaq mümkün deyil. Ola bilsin ki, model dəyişsin”. Maraqlıdır, görəsən ekspertlər bu barədə nə düşünürlər? Ümumiyyətlə, gələcəkdə Azərbaycanın təhsil sistemində bu təcrübədən istifadə oluna bilərmi?***

**Təhsil**





**Şahlar Əsgərov,**
əməkdar elm xadimi,
professor

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən əməkdar elm xadimi, professor Şahlar Əsgərov deyib ki, bu gün ali məktəblərə keçirilən qəbul imtahanları milli maraqlara uyğun deyil:** “Mən artıq otuz ildir ki, eyni şeyi deyirəm. Məleykə Abbaszadə ilə görüşəndə, televiziyada təşkil olunan debatlarda demişəm ki, Azərbaycanın indiki durumunda qəbul imtahanına ehtiyac yoxdur. Qəbul imtahanı sovet dövründə vacib idi. Hər 100 uşağın 33-ü ali məktəbə qəbul olurdu, 67-si isə “sovxoz” üçün fəhlə kimi hazırlanırdı. Bütün SSRİ-də 100 nəfərdən 33-ü ali savadlı idi, onlara təyinat verilirdi. Tələbələr təqaüd və yataqxana ilə təmin edilirdi. İndi açıq cəmiyyətdir, dünya ölkələri gənclərin ali təhsilli olmasına çalışır. Bu, cəmiyyətin intellektual səviyyəsinin artmasına səbəb olur. Ancaq qəbul imtahanları cəmiyyətin intellekt səviyyəsinin yüksəlməsinə əngəl olan bir prosedurdur. Administrativ yollarla imtahan keçirib, abituriyentləri bu və ya başqa universitetə yerləşdirmək doğru deyil. Əgər qəbul imtahanlarının saxlanılmasını istəyiriksə, o halda imtahanlar çox sadələşdirilməlidir. Bizim orta məktəbi bitirən şagirdlərin, təqribən, 70 faizi yerli universitetlərə, qalanları isə xarici universitetlərə üz tuturlar. Onlar niyə başqa ölkələrə getsinlər axı? Seçim aparmaq üçün yüngül test, yaxud da müsahibə keçirmək olar. Bunun üçün hay-həşir qoparmağa, imtahan üçün çox sayda sənədlər toplamağa, gərginlik yaşamağa ehtiyac yoxdur. Bütün bunlara son qoymaq lazımdır”.

■ **Mövzu ilə bağlı təhsil eksperti Nadir İsrafilov bildirir ki, hər ölkənin öz inkişaf mərhələsi və bu mərhələnin də keçid konsepsiyası var:**

“Mən imtahanlarla bağlı hər hansı bir məsələ gündəmə gətiriləndə dəfələrlə demişəm ki, hər hansı bir ölkənin təcrübəsini olduğu kimi köçürüb bizim təhsil sisteminə tətbiq etməyin qəti əleyhinəyəm. Təcrübəmizdə bu kimi halların heç də az şahidi olmamışıq və bunun bəzi acı nəticələrinə də bələdik. Hər ölkənin öz inkişaf mərhələsi var və bu mərhələnin də keçid konsepsiyası var. Elə ölkə var ki, orta məktəblərin buraxılış və ali



**Nadir İsrafilov,**
təhsil eksperti

məktəblərə qəbul imtahanlarını birləşdirməklə vahid imtahan keçirmək yolunu seçib, digər bir ölkədə ali məktəblərə qəbul olmaq üçün orta məktəb attestatı kifayət edir. Bir başqa ölkədə isə orta məktəblərin məzunları bir imtahan verərək, həm ali məktəbə daxil olur, həm də orta məktəbi bitirmiş olurlar. Yəni iki imtahanın birləşməsi ilə onların biliyi qiymətləndirilir və istədikləri yerə sənəd verirlər və s.”.

> *Administrativ yollarla imtahan keçirib, abituriyentləri bu və ya başqa universitetə yerləşdirmək doğru deyil*

> *Testin əhəmiyyəti ondan ibarət idi ki, obyektivliyin təmin olunmasında vasitə hesab edilirdi*

> *Ali məktəblərə attestatla qəbulun həyata keçirilməsi təhsildə müsbət nəticələr verə bilər*

Ekspert xatırladır ki, sovet döneminin 70 ili ərzində ölkəmizdə yazılı-şifahi imtahanlar olub. Orta məktəblərdə şagirdlər ibtidai sinif başa çatandan sonra 5-6-cı siniflərdə 2 imtahan, 7-8-9-cu siniflərdə 3 imtahan, 10-11-ci siniflərdə 4 imtahan verirdilər: “Bu o demək idi ki, uşaqlar imtahana tədricən alışdırılırdı. Sonra biz aralıq imtahanlarını ləğv edərək, test üsuluna keçdikdə, birdən-birə test üsulunun tətbiqi ilə bağlı 8 fəndən imtahan salındı. O vaxt belə qərara gəlinmişdi ki, testlə qəbulda 350 bal həddi olsun. Bu bal həddi klassik qiymətləndirmə ilə “3” hesab olunurdu. Sonra məlum oldu ki, 350 bal toplayanlar azdır, 150, hətta 100 balla da ali məktəblərə qəbul həyata keçirdik. Testin əhəmiyyəti ondan ibarət idi ki, obyektivliyin təmin olunmasında vasitə hesab edilirdi. Bir çox vətəndaşlarımız tərəfindən müsbət qəbul olunurdu ki, imkansız ailələrin övladları məhz test vasitəsilə ali məktəblərə qəbul olunur. Sonra test tədricən əvvəlki səviyyədən fərqli olaraq mahiyyətini itirməyə başladı. Testlə bağlı fikirlər haçalandı. Məlum oldu ki, testin müsbət tərəfləri kimi mənfilikləri də var. Oxu, yazı vərdişləri kimi keyfiyyətləri üzə çıxarmaqda məhdudiyyətlər yaranır. Ona görə müəyyən dövrdən sonra qapalı testlərə açıq testlər əlavə etdilər. Boloniya prosesinə qoşulduqdan sonra ali məktəblərdə birdən-birə sessiya imtahanları yazılı şəkildə keçirildi. Təsəvvür edin ki, uşaqlar orta məktəbdən testlə gəlir, ali məktəbə testlə qəbul olur, sesssiya imtahanında birdən-birə yazılı tətbiq edilir. Ona görə də bizim bir sıra universitetlərdə tələbələr etiraz edirdi. Ondan sonra məsələ qoyuldu ki, ali məktəblərdə yazılı imtahana keçirilirsə, orta məktəbdə də bu vərdişləri yaratmalıyıq. Ona görə də belə qərara alındı ki, 9-cu sinifdə esse imtahanı keçirilsin. Esse imtahanları da zəif göstəricilərlə nəticələndi. Ona görə də yenidən testi bərpa etdik. Bu gün kurikulum tətbiq edirik. Əvvəlki təhsil proqramları bilikyönümlü, indiki kurikulumlar isə şəxsiyyət yönümlüdür. Yəni şagirdlər yalnız biliklə kifayətlənməməli, bacarıqları, vərdişləri olmalıdır. Bu baxımdan testin imkanları məhduddur. Ona görə də bu saat testin ləğvindən deyil, imkan daxilində təkmilləşdirilməsindən söhbət gedə bilər. Hazırda dünyanın bir sıra ölkələrində attestatla qəbul həyata keçirilir. Ümumiyyətlə, imtahansız qəbulun təşkilindən də söhbət gedir. Bu gün imtahanları da ləğv edə bilmərik, biz buna hazır deyilik. Tədricən təkpilləli vahid imtahana keçə bilərik. Buraxılış imtahanları ilə ali məktəbə qəbul imtahanlarını birləşdirib bir imtahan yolu ilə abituriyentlərin ali məktəbə qəbul məsələsini həll edə bilərik”.

■ **Mövzu ilə bağlı təhsil eksperti Elçin Süleymanov vurğulayır ki, ali məktəblərə attestatla qəbulun həyata keçirilməsi təhsildə müsbət nəticələr verə bilər. Hələlik bu təcrübədən istifadə olunması real görünmür:** “Bunun üçün orta məktəblərdə qiymətləndirmə prosesinə tam əmin olmaq lazımdır. Düzdür, hazırda Amerika, Kanada kimi ölkələrdə orta məktəb göstəriciləri əsasında universitetlərə qəbul aparılır. Bu təcrübədən Azərbaycanda istifadə olunması hələ ki, tezdir. Hazırda DİM buraxılış imtahanlarında yalnız 3 fəndən şagirdlərin biliklərini qiymətləndirir. DİM-nin elə bir potensialı yoxdur ki, orta məktəbdə tədris olunan bütün fənlər üzrə qiymətləndirmə aparsın. Ona görə də orta məktəblərdə qiymətləndirmə prosesinə tam əmin olmadan bu prosesə keçmək qeyri-mümkündür”.

✍ ***Sevinc***

# Lisey və gimnaziyalara ərizə qəbulu başladı

***Mayın 20-dən 2024-2025-ci tədris ili üzrə Bakı şəhəri və ölkənin müxtəlif bölgələrində yerləşən bir sıra lisey və gimnaziyalara ərizə qəbuluna başlanılır. Təhsil İnstitutundan verilən məlumata görə, lisey və gimnaziyalara şagird qəbulu mərkəzləşdirilmiş imtahan əsasında həyata keçiriləcək. Bunun üçün valideyn (və ya qanuni nümayəndə) şəxsi kabinetində “Sorğu yerləşdir” bölməsinə daxil olaraq, “Mərkəzi imtahanla qəbul” düyməsini sıxmaqla imtahanın keçiriləcəyi mərkəzi seçməlidir.***

Şagirdlər əvvəlcə mərkəzləşdirilmiş qəbul imtahanında iştirak etməli, sonra isə topladıqları bala müvafiq olaraq təhsil almaq istədikləri lisey və ya gimnaziyaların seçimini aparmalıdırlar. İmtahan zamanı şagirdlərə tədris dili və riyazi təfəkkürü ölçən standart və qeyri-standart suallar təqdim ediləcək. Ərizə qəbulu mayın 20-dən iyunun 13-dək davam edəcək. Qeyd edək ki, lisey və gimnaziyalara qəbul imtahanı 7 və 8-ci siniflər üzrə iyunun 21-i, 6-cı siniflər üzrə iyunun 22-si, 5-ci siniflər üzrə iyunun 23-ü həyata keçiriləcək.

> *Təhsil müəssisələrimizə həm şagird, həm də müəllim seçimində müstəqillik verilməlidir*

■ **Mövzu ilə bağlı təhsil eksperti Nadir İsrafilov deyib ki, lisey və gimnaziyalara qəbul prosesinin mərkəzləşdirilməsi, adətən, arzuolunmayan halların qarşısını almaq üçün atılan addımdır:** “Hesab edirəm ki, bu istiqamətdə qaydalar dəyişməlidir. Əgər insan müdaxiləsi olmadan sistem qurmağa çalışırıqsa, deməli, insanımıza etibar etmirik. Axı, biz insanlara niyə etibar etməyək? Düşünürəm ki, təhsil müəssisələrimizə həm şagird, həm də müəllim seçimində müstəqillik verilməlidir”.

■ **Məsələ ilə bağlı təhsil eksperti Elşən Qafarov bildirir ki, xüsusi təhsil proqramı əsasında fəaliyyət göstərən bəzi dövlət liseyləri, məktəb-liseylər və gimnaziyalar bir çox təhsil standartlarına cavab vermir: “Təəssüflər olsun ki, liseylə, məktəb-liseylə, gimnaziyalarla bağlı proqramlar olsa da, fərqli dərsliklər yoxdur.** Fizika-riyaziyyat təmayüllü liseydəki dərsliklər Oğuzun Kərimbəyli kəndində keçirilən riyaziyyat dərslikləri ilə eynidir, ancaq beynəlxalq təcrübədə belə deyil. Liseylərin öz xüsusi proqramları olduğu kimi, həm də xüsusi dərslikləri var”.

> *Fizika-riyaziyyat təmayüllü liseydəki dərsliklər Oğuzun Kərimbəyli kəndində keçirilən riyaziyyat dərslikləri ilə eynidir*

Ekspert qeyd edir ki, hazırda liseylərə qəbul qaydaları ilə bağlı ciddi yeniliklərə ehtiyac var: “Olimpiadada yer tutanlar mərkəzləşdirilmiş şəkildə növbədənkənar qəbul olunurlar, Əvvəl ayrı-ayrı istiqamətlər üçün fərqli imtahanlar keçirilsə də, indi təkcə riyaziyyat və Azərbaycan dilindən keçirilir. Lisey və gimnaziya imtahanlari fərqli-fərqli istiqamətlər üzrə - texniki, humanitar, təbiət və s. üzrə olmalıdır”.

✍ ***Müşfiq***

**Aktual**

***2023-cü ildə 91 Azərbaycan vətəndaşı sosial şəbəkələr vasitəsilə insan alverinin qurbanına çevrilib. Bu, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatında əksini tapıb. Hesabata əsasən, onların 38 faizi 35 yaşdan yuxarı, 7 faizi 18-25 yaş arası, 55 faizi isə 25-35 yaş aralığındakı şəxslərdən ibarətdir. Həmçinin, 24 nəfərin Bakı, 11 nəfərin Gəncə, 6 nəfərin Tovuz, 5 nəfərin isə Sumqayıt şəhər sakini olduğu müəyyənləşib. Eyni zamanda, onlardan 28-i Türkiyə, 28-i Rusiya, 15-i Birləşmiş Ərəb Əmirlikləri, 10-u Bəhreyn, 4-ü Qətər, 3-ü İran, 1-i isə İraqda cinsi istismara məruz qalıb.***

# Sosial şəbəkələrdə insan alverinin qurbanı olanlar

Qurbanlardan altısı 18-25 yaş arası, 50-si 25-35 yaşlarında, 35 nəfəri 35-dən yuxarı yaş həddində, 24-ü paytaxt, 67-si respublikanın digər şəhər və rayonlarının sakini, habelə 74-ü 2016-22-ci illərdə, 17-si isə 2023-cü ildə istismara məruz qalan şəxslər olub. Bundan başqa, 2005-23-cü illərdə 1 350 nəfər insan alveri qurbanı olub. Onlardan 1 264 nəfəri qadın, 86-sı isə kişi olub.

Keçən il insan alveri və məcburi əmək qurbanlarının müəyyənləşdirilməsi, istismar hallarına yol verən şəxslər haqqında müvafiq məsuliyyət tədbirlərinin görülməsi işi də davam etdirilərək xüsusi polis qurumu tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 159 (+2) insan alveri və 3 (sabit) məcburi əmək faktı, həmçinin insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərlə əlaqədar 44 (sabit) cinayət aşkarlanıb. Həmin faktlar üzrə 16 (+2) cinayət işi başlanılaraq 18 şəxs (+2, 15-i qadın, 3-ü kişi) təqsirləndirilən qismində cəlb edilib. Ümumilikdə 11 (-2) cinayət işinin (3-ü ötən illərin) istintaqı tamamlanıb, 14 nəfər (-1, 11-i qadın, 3-ü kişi) məhkəmə məsuliyyətinə verilib, insan alverçilərinin 10-u (-2) haqqında ittihamedici hökmlər çıxarılıb. Bundan başqa, ötən il Azərbaycanda insan alveri cinayətlərinə məruz qalanların 24-ü Bakı, 11-i Gəncə və beşi Sumqayıt şəhərləri, altısı Tovuz, üçü Sabirabad, üçü Ağdam və digər rayonların payına düşüb.

Qeyd edək ki, Milli Məclisin deputatı Azay Quliyev parlamentdə İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatın müzakirəsi zamanı çıxışında deyib ki, bəzən yalançı iş elanları nəticəsində insanlar qurbana çevrilirlər: “Bununla da insanlar aldadılaraq şirnikləndirici iş adı ilə xaricə aparılır, nəticədə insan alveri qurbanı olurlar. Bu məsələdə görüləcək işlər var. Eləcə də mənbənin araşdırılması və aşkarlanmasına ciddi ehtiyac var”.

Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini, deputat Tahir Kərimli isə deyib ki, Azərbaycanda hostellərin sayının artması insan alveri qurbanlarının çoxalmasına səbəb olur. O bildirib ki, insan alveri qurbanları arasında kişilərin sayının artması narahatedicidir: “Ümumilikdə insan alveri qurbanları ilə bağlı ciddi mübarizə aparmaq lazımdır. Bəzən elektron sistemin inkişafının öhdəsindən gələ bilmirik. İnsan alveri qurbanları bəzən könüllü hallarda baş verir. Ölkədə son zamanlar hostel sistemi inkişaf etdiyindən bir az bu sahədə nəzarətsiz hallar müşahdə edilir. Ona görə diqqəti bura yönəltmək lazımdır. Hesab edirəm ki, bu sahədə qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi zəruridir. Nəzarət tədbirləri daha da gücləndirilməlidir”.



> *İnsan alveri qurbanları daha çox sosial şəbəkələr üzərindən aparılan danışıqlar nəticəsində aldanırlar*

■ **Məsələyə münasibət bildirən “Təmiz Dünya” İctimai Birliyinin sədri Mehriban Zeynalova bildirib ki, insan alveri qurbanları daha çox sosial şəbəkələr üzərindən aparılan danışıqlar nəticəsində aldanırlar:** “Bu proses əsasən ”WhatsApp” üzərindən aparılıb. 2008-2018-ci il ilə kimi ABŞ Dövlət Departamentinin hesabatında göstərilirdi ki, dünyada sosial şəbəkələr vasitəsi ilə fahişəliyə cəlbetmələr 80-90 faiz təşkil edir. Müxtəlif sosial şəbəkələr üzərindən kodlaşmış sözlərlə insan alveri təşkil edilir. Bizdə daha çox ”danışıqlar” ”WhatsApp” üzərindən aparılır. Orada tanış olurlar, yazışmalar, təkliflər və şirinlikləşmələrin hər biri bi şəbəkə üzərindən baş verir. Mən insan alveri qurbanları ilə bağlı tədqiqat apardım. Həmin vaxt orada insan alveri qurbanları və cinayət edən şəxslərlə görüşdüm. Əksəriyyəti də sosial, həssas qruplardan olanlar, zorakılığa məruz qalan, baxımsız uşaqlardı. Hətta bir nəfərin banka borcu vardı və həmin borcu vermək üçün bu yolu seçmişdi. Bu alverin qurbanları daha çox qadınlardır.

İnsan alverçiləri daima yeni marşurutlar axtarırlar. Kimi evlənmək, kimi iş təklifi aldadılır və beləcə müxtəlif yollarla qadınları bu işə cəlb edirlər. Ümumilikdə, insan alveri ilə məşğul olanlar Yaxın Şərq ölkələrinə qadın daşıyırlar. Əvvəlki illərdə onlar Rusiya, Türkiyə, Dubayı seçirdilərsə, indi daha çox Bəhreynə üz tuturlar”.

✍ ***Rəna***

# Bank kartlarımızı gözləyən təhlükə

***Son vaxtlar bank kartlarından oğurluq halları daha da artıb. Belə ki, cinayətkar qruplar xarici nömrələr vasitəsilə vətəndaşlara zəng edərək onların bank kartı məlumatlarını əldə edir və hesablarında olan vəsaitləri kiber üsullarla talamaqda davam edirlər. Qeyd edək ki, Daxili İşlər Nazirliyi (DİN) mövcud vəziyyətlə bağlı vətəndaşları diqqətli olmağa çağırıb. Qurumun Mətbuat xidmətinin rəisi Elşad Hacıyev bildirib ki, mayın 18-19 tarixlərində vətəndaşlara məxsus kartlardan müvafiq olaraq 9604, 6500, 5075, 2720, 1700, 1700, 1432, 1347, 1340, 1200, 1123, 975, 560, 490, 460, 400, 318, 300, 250, 160, 100, 43 vəsaitlər oğurlanıb:***

## Xəbərdarlıq

“Bütün faktlar bir üsulla - şəxsi məlumatları vətəndaşların tanımadığı şəxslərə verməsi nəticəsində baş verib. Ən yüksək məbləğ, “faiz hesablanmadan əlavə kredit xətti açılması” ilə bağlı 9604-dür. “Bankdandır, karta müdaxilə var, hesabınızdan pul oğurlanma riski yaranıb, aradan qaldırmağa çalışırıq”, - deməklə isə 6500 manat pul oğurlanıb. Digər faktlar da eyni məzmunludur”.

DİN rəsmisi müracətində qeyd edib ki, hesaba pul köçürülməsi niyyəti ilə qarşı tərəfə 16 rəqəmdan əlavə məlumatlar verilməməlidir: “Əgər hər hansı cəbedici təkliflərə inanmaq istəyirsinizsə, müştərisi olduğunuz bankla əlaqə saxlayın, informasiyanı yoxlayın, əks halda pul vəsitinizi itirəcəksiniz”.

■ **Mövzu ilə bağlı Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası İctimai Birliyinin İdarə Heyətinin sədri Elvin Abbasov bildirib ki, bank kartlarından pulların oğurlanması müxtəlif yollarla baş verir.**

Azərbaycanda yayılmış geniş üsullardan biri fişinqlərdir: ”Fişinqlərdə öncə telefonlar ələ keçirilir, yəni link göndərilir və bu linklərlə telefondakı məlumatlar ələ keçirildikdən sonra vətəndaşların məlumatlarından istifadə edərək onun hesabına daxil olur və kartlardakı pullar çəkilir. Belə məsələlərdə banklar haqlı olaraq özünü sığortalayır ki, əgər vətəndaşın öz səhvi varsa, buna görə bank məsuliyyət daşımır. Bank, ancaq öz sisteminə məsuliyyət daşıyır, lazımi güvənlik tənzimləmələrini edir. Əgər siz öz səhvinizə görə məlumatlarını oğurladırsınızsa, bank da keçirilən əməliyyatları sizin keçirdiyiniz kimi görürsə, o burda məsuliyyət qəbul etmir”.



■ **Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz də hesab edir ki, onlayn fırıldaqçılıq yolu ilə bank kartlarından pulların oğurlanması kimi halların bu qədər artmasına səbəb vətəndaşların məlumatsızlığıdır:** “Bu gün dələduzluq formaları da rəqəmsallaşıb və bu mövzuda kifayət qədər “peşəkarlar” var. Onların “uğurunun” əsas səbəbi isə əksər hallarda insanların məlumatsızlığı olur. Vətəndaşlar son dərəcə diqqətli və ehtiyatlı olmalıdırlar. Mütləq şəkildə onlara sorğu göndərən resursu öyrənməli, domenin nə zaman yaradıldığına diqqət yetirməlidirlər. Sorğu göndərən resurs barədə “Google”da qısa bir araşdırma aparmalıdırlar. Əgər bu resurs barədə “Google”d ə heç bir məlumat yoxdursa, dərhal aidiyyəti qurumlara müraciət etmək lazımdır”.

Ekspert qeyd edir ki, bir neçə qaydaya riayət etməklə bu kimi risklərdən qorunmaq olar: “İstənilən bankda kart əldə etdiyiniz zaman ilk iş olaraq SMS bildiriş funksiyasını aktivləşdirmək lazımdır. Heç bir halda zəng vuran, e-mail və ya sosial şəbəkə vasitəsilə yazan fırıldaqçının sözlərinə inanmaq olmaz. Bütün kart mərkəzlərinin 7/24 çalışan əməkdaşları var. Təhlükəli əməliyyat aşkarladıqları zaman vətəndaşın icazəsini soruşmadan belə bu əməliyyatı dondurmaq və bloklamaq səlahiyyətləri var. İnternetdə qarşınıza çıxan cəlbedici onlayn lotereya və ya prizlərlə bağlı keçidlərə keçmək məsləhət deyil. Vətəndaş ona məxsus olmayan, ictimai açıq olan Wi-Fi şəbəkələrinə də qoşulmamalıdır. Məcburiyyətdən qoşulduğu zaman isə elektron bank sistemlərinə, elektron poçta, sosial şəbəkə sistemlərinə giriş etməməyə çalışmalıdır. Vətəndaş daxil olduğu saytların adlarının “https” ilə başladığına və öndə yaşıl qıfıl işarəsinin olduğuna diqqət yetirməlidir”.

■ **Məsələyə münasibət bildirən bank məsələləri üzrə ekspert, hüquqşünas Əkrəm Həsənov deyir ki, bəzən kimsə vətəndaşlara zəng edir, bank kartının rekvizitlərini soruşur, guya ki, bankdan zəng ediblər.**

Vətəndaş da düşünmədən kartının rekvizitlərini, onun ön və arxa tərəfində olan nömrələri, digər məlumatları o şəxsə verir. Zəng edən şəxsin həqiqətən də bank işçisi olub-olmadığı dəqiqləşdirilmir. Ona görə də kartından pul çıxarılır. Vətəndaş bilməlidir ki, bank heç vaxt telefonla zəng edib belə şeyləri soruşmur. Bu məlumatlar bankın özündə mövcuddur: “Ümumilikdə, bankın kart məlumatlarını istəməsi şübhəli haldır. Bank müştəriyə kartı həmin məlumatları üçüncü tərəfə açıqlamamaq şərti ilə təqdim edir. Belə olduğu halda bankın özünün geri dönüş edib bu məlumatları müştəridən istəməsi sual doğurur. Bu məlumatlar onsuz da bankın sistemində var. Hansısa bankın adından müştəriyə zəng daxil olunubsa, hansısa məlumatlar tələb edilirsə və müştəridə öz-özlüyündə şübhə yaranırsa, həmin şəxs dəstəyi asmalı və bankla özü əlaqə saxlamalıdır. Müştəri zəngin məzmunu ilə bağlı məlumatları verdikdə bank özü də təhlükəsizlik xidmətlərini gücləndirmiş olur”.

“

*Bank, ancaq öz sisteminə məsuliyyət daşıyır, lazımi güvənlik tənzimləmələrini edir*

*Onlayn fırıldaqçılıq yolu ilə bank kartlarından pulların oğurlanması kimi halların bu qədər artmasına səbəb vətəndaşların məlumatsızlığıdır*

*Vətəndaş bilməlidir ki, bank heç vaxt telefonla zəng edib belə şeyləri soruşmur*

✍ ***Sevinc***

# “Bakcell”in Baş İcraçı Direktoru Müasir Təhsil Kompleksinin şagirdləri ilə görüşüb

**Ölkənin ən böyük özəl telekommunikasiya şirkəti Bakcell, Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin (MTK) şagirdləri ilə dinamik panel müzakirəsi keçirib.**

”Təhsildə innovasiya və süni intellektin rolu” adlı paneldə Bakcell-in Baş İcraçı Direktoru Klaus Müller, MTK-nın Baş İcraçı Direktoru Aygün Mikayılova və məktəbin şagirdləri iştirak edib. Tədbirin mövzusuna uyğun olaraq, müasir təhsildə innovasiya və yüksək texnologiyaların rolu barədə maraqlı mövzular haqqında danışılıb.

“Bu gün burada Azərbaycanın savadlı gəncləri ilə bir araya gəlməkdən çox zövq aldım. İnnovasiyaları təmsil edən bir şirkət kimi texnologiyaya maraq göstərən, gələcək yönümlü şagirdləri görmək bizi sevindirir. Bizim gənclərlə bir çox ortaq cəhətimiz var: bunlardan ən önəmlisi isə innovasiyaya sadiqliyimizdir.” deyə Klaus Müller bildirib.




”Biz şagirdlərimizin akademik potensiallarını inkişaf etdirməklə yanaşı, onların digər sahələrdə də istedadlarının aşkar edilməsi üçün çalışırıq. İnnovasiya yönümlü şagirdlərimizin ən son texnoloji yenilikləri Bakcell kimi şirkətdən əldə edə bilmələri bizim üçün böyük uğurdur. Bugünkü maraqlı panel müzakirəsinə görə məktəbimiz adından Bakcell rəhbərliyinə təşəkkürümüzü bildirirəm.” deyə Aygün Mikayılova bildirib. Şagirdlərlə görüşdə Bakcell-in süni intellekt dəstəkli humanoid robotu Ardi də iştirak edib. Sual-cavab sessiyası ilə davam edən panel müzakirəsində şagirdlər Bakcell-in rəhbər heyəti və Ardiyə öz suallarını yönləndirərək, yeni texnologiyaların, süni intellektin təhsilə tətbiqini müzakirə ediblər.

Sonda şirkətin rəhbər heyəti məktəbin STEAM laboratoriyasına baş çəkib. Şagirdlərin qabaqcıl texnologiyalardan istifadə edərək hazırladıqları layihələri və laboratoriyanın dövrün tələblərinə uyğun təmin olunması Bakcell rəhbərliyinin diqqətini çəkib.

## HƏFTƏ REYTİNQ

### Həftənin ÇEMPİONU



Mayın 20-də Abu-Dabi şəhərində keçirilən cüdo üzrə Dünya çempionatında 73 kq çəki dərəcəsində dünya reytinqində ilk pillədə qərarlaşan cüdoçumuz Hidayət Heydərov 11 ildən sonra ölkəmizə yenidən qızıl medal qazandırıb. Sonuncu dəfə bu titulu 2013-cü ildə Braziliyada keçirilən Dünya çempionatında Elxan Məmmədov əldə edib.

### Həftənin REKTORU



Prezident İlham Əliyev Şahin Bayramovla bağlı Sərəncam imzalayıb. Hafta.az xəbər verir ki, Sərəncamla Şahin Vaqif oğlu Bayramov Mingəçevir Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilib. Dövlət başçısının digər Sərəncamı ilə Şahin Bayramov Qarabağ Universitetinin rektoru təyin edilib.

### Həftənin AÇIQLAMASI



Azərbaycan şahmat millisinin üzvü Şəhriyar Məmmədyarov açıqlamaları ilə müzakirələrə səbəb olub. İTV-də yayımlanan “Persona” verilişində qonaq olan qrossmeyster qadınların bütün sahələrdə kişilərdən geridə olduğunu bildirib. “Şahmatda qadın-kişi faktoru çox önəmlidir. Qadınlar kişilərdən çox zəifdirlər. Düzdür, bu fikir indi qadınların çoxunun xoşuna gəlməyəcək, amma dünyanın yüz ən yaxşı şahmatçısından biri belə qadın deyil”, o deyib”. Onun bu sözləri sosial şəbəkələrdə birmənalı qarşılanmayıb, sərt tənqid edilib.

### Həftənin ETİRAFI



“Ermənilərin çoxu övladlarının hərbi xidmətdən yayınması üçün mühacirət edib”. Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan demoqrafik strategiyanın müzakirəsi zamanı deyib. O qeyd edib ki, demoqrafik vəziyyət təhlil edilərkən bir sıra amillər nəzərə alınmır. Xüsusən də bu səbəbdən nə qədər insan ölkəni tərk edib.

### Həftənin NAZİRİ



Çeçenistan rəhbəri Ramzan Kadırovun oğlu Axmat Kadırov vilayətin bədən tərbiyəsi və idman naziri vəzifəsinə təyin edilib. Bu barədə Ramzan Kadırov teleqram kanalında məlumat verib. “Axmat Kadırov Çeçenistan Respublikasının bədən tərbiyəsi və idman naziri vəzifəsinə təyin edilib. Əvvəllər bu vəzifəni tutan İsa İbrahimov Çeçenistan Respublikasının hökumət administrasiyası rəhbərinin müavini vəzifəsinə keçirilib”, - deyə məlumatda bildirilir.

### Həftənin QAZANCI



Türkiyəli müğənni və aktrisa Hülya Avşar reklam razılaşmasını yeniləyib. Bu haqda “Milliyyət” qəzeti yazı dərc edib. Belə ki, aktrisa mebel şirkətinin reklamlarında daha 2 il yarım yer almağa davam edəcək. O, bunun müqabilində 50 milyon lirə (təxminən 2 milyon 644 min manat) alıb.

✍ *Azad Əliyev*

## GÜNÜN FOTOSU



**Cennifer Lopez Los-Anceledəki Hollywood Misir Teatrında “Atlas” filminin premyerasında**

“

## Proporsional seçki tələbi

**Elçin Mirzəbəyli,**
Ədalət, Hüquq, Demokratiya Partiyasının sədr müavini

İndiki halda siyasi partiyaların kadr potensialı ümumi mənzərədən qənaətbəxş görünmür.

▸▸ *Səh. 5*

## STATİSTİKA



■ **2024-cü ilin yanvar-aprel aylarında Azərbaycan Respublikasına dünyanın 174 ölkəsindən 726,4 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 38,9 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.**

Gələnlərin 28,8 faizi Rusiya Federasiyası, 19 faizi Türkiyə, 9,7 faizi İran, 8,4 faizi Hindistan, 4,6 faizi Gürcüstan, 3,1 faizi Qazaxıstan, hər birindən 2,4 faiz olmaqla Səudiyyə Ərəbistanı və Pakistan vətəndaşları olub. Gələnlərin 71,1 faizini kişilər, 28,9 faizini qadınlar təşkil edib.



▸▸ *Səh. 6*

## Bank mütəxəssisləri işsiz qalacaq?